RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 173 (8489) BAZAR, 30 avqust 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin islahatlarına yüksək beynəlxalq qiymət

## Azərbaycan BMT-nin "Davamlı inkişaf hesabatı - 2020" sənədində 166 ölkə arasında 54-cü pillədə qərarlaşaraq dünyanın hər 3 ölkəsindən ikisini qabaqlayıb

Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatlara növbəti yüksək beynəlxalq qiymət BMT-dən gəldi. Ölkəmiz BMT-nin "Davamlı inkişaf hesabatı - 2020" sənədində dünyanın 166 ölkəsi arasında "Davamlı inkişaf məqsədləri indeksi" üzrə 54-cü pillədə qərarlaşdı. "Davamlı inkişaf məqsədləri indeksi"nə görə Azərbaycan regional liderdir. Ölkəmiz əldə etdiyi nəticəyə əsasən həm regiondakı, həm də bəzi böyük dövlətləri geridə qoymaqla dünyada hər üç ölkədən ikisini qabaqlaya bilib.

Hesabatda Rusiya 57-ci, Gürcüstan 58-ci, İran 59-cu, Qazaxıstan 65-ci, Türkiyə 70-ci, Ermənistan 75-ci və Türkmənistan 114-cü mövqedədir. Yəni Azərbaycan regionun aparıcı ölkələri hesab edilən Rusiya və Türkiyədən də öndədir.

### Dünya ölkələri arasında mühüm nəticə

Ümumiyyətlə, tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın son 17 ildə yüksəliş strategiyasını uğurla reallaşdırması beynəlxalq səviyyədə, dünyanın aparıcı siyasi, iqtisadi, maliyyə və digər qurumları tərəfindən də təsdiq olunur. BMT-nin yaydığı məlumatda da bildirilir ki, Azərbaycan "Davamlı inkişaf məqsədləri indeksi"nə görə dünya ölkələri arasında mühüm nəticə nümayiş etdirir.

Həmçinin Azərbaycan səhiyyə, sosial rifah, yoxsulluq, qidalanma, təmiz su, təmiz enerji, davamlı şəhərlər və icmalar, sülh, ədalət və güclü institutlar kimi BMT-nin Davamlı İnkişaf Məqsədləri üzrə irəliləyişlər edib. Ölkəmiz "Davamlı inkişaf məqsədləri indeksi"nin mümkün 100 balından 72,6 bal toplayıb. Qeyd edək ki, Şərqi Avropa və Mərkəzi Asiya regionunda "Davamlı inkişaf məqsədləri indeksi" üzrə orta göstərici 70,9-dur.

Hesabata əsasən, Azərbaycanda gündəlik gəliri 3,2 dollardan az olan yoxsul qeydə alınmayıb, Ölkədə hər 100 min nəfərə ana və körpə ölümü kimi göstəricilərdə yaxşılaşma olub. Bərabərsizliyi ifadə edən "Cini" əmsalı Azərbaycanda 38,6 olmaqla dünyada ən yaxşı göstəricilərdən biridir.

Göründüyü kimi, bu hesabat hazırlanan zaman fərqli indeqatorlardan istifadə olunur. Həm iqtisadi, həm sosial, həm də bütövlükdə bu sahədə aparılan islahatların nəticəsi kimi makroiqtisadi və eləcə də sosial göstəricilərdə baş verən dəyişikliklər həmin hesabatda öz əksini tapır.

Əlbəttə ki, ölkəmizə və cənab İlham Əliyevin mütərəqqi islahatlarına nüfuzlu təşkilat tərəfindən verilən qiymət qürurvericidir. Bundan öncə də Azərbaycan hər ötən il müxtəlif beynəlxalq qurumların - Dünya Bankı, Dünya İqtisadi Forumu və reytinq təşkilatlarının hesabatlarında yüksəlişə doğru irəliləyib. Azərbaycan islahatçı dövlət, cənab İlham Əliyev isə ən islahatçı Prezident kimi qiymətləndirilib.

Hazırda qlobal pandemiya dövründə dünya iqtisadiyyatında baş verən tənəzzül təbii ki, Azərbaycandan da yan keçməyib. Ancaq ölkədə heç bir sosial layihə təxirə salınmayıb. Neftin qiymətinin aşağı düşməsi, eləcə də pandemiya ilə mübarizə tədbirləri dövlətin sosial layihələrinin icrasına təsir göstərə bilməyib. Bu gün də sosial proqramlar icra olunur və eyni zamanda bu istiqamətdə ayrılan vəsaitlərin həcmində artımlar var.

Ardı 3-cü səh.

# Həm döyüş, həm də siyasət meydanında üstünlük Azərbaycanın tərəfindədir

## İlham ƏLİYEV: "Biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək"

Ötən ay baş verən Tovuz döyüşlərinin nəticələri Ermənistanın siyasi-hərbi dairələri tərəfindən ciddi narahatlıqla qarşılanmışdır. Birbaşa etiraf olunmasa da, işğalçı dövlətin rəhbərliyi Azərbaycanın qarşısında aciz olduqlarının fərqindədir.

Son vaxtlar istər Ermənistan, istər separatçı rejim tərəfindən səslənən təhdidlər düşmənin həm də isterika içərisində olduğunu göstərir.

### Ordumuz bir daha üstünlüyünü göstərdi

Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təxribatın qarşısı silahlı qüvvələrimizin bölmələri tərəfindən rəşadətlə alındı. Düşmən əks həmlə və qisas əməliyyatı ilə ordumuzun gücünü yenidən hiss etdi, döyüş meydanında çoxsaylı itki verərək geri çəkilməyə məcbur oldu. Bununla da Azərbaycan Silahlı Qüvvələrinin müqayisəolunmaz üstünlüyü, hər an düşməni məhv etməyə hazır olması növbəti dəfə öz təsdiqini tapdı. Bu hadisə Azərbaycanın 2016-cı ilin aprelində qazandığı qələbənin təsadüfi olmadığını da göstərdi.

Ardı 3-cü səh.



# Ermənistan ordusunun real mənzərəsi: Əsgər tapılmır, ümid hərbi könüllü dəstələrədir

## Paşinyan hakimiyyətini qorumaq üçün əlavə güc formalaşdırmağa çalışır

Pandemiya fonunda üzləşdiyi tənəzzüldən xilas ola bilməyən Ermənistanda digər sahələrlə yanaşı, ordu quruculuğu prosesində də yaşanan problemlər baş nazir Nikol Paşinyana qarşı cəmiyyətdə olan narazılığı daha da artırır. Şəxsi heyətin itkisi baxımından qeydə alınan rəqəmlər getdikcə böyüyür. Yeni hakimiyyətin qurulmasından sonra ordu rəhbərliyində aparılan dəyişikliklər də problemin həlli istiqamətində hansısa yeniliyə gətirib çıxarmadı. Əksinə, həm döyüş, həm də qeyri-döyüş şəraitində həyatını itirən erməni hərbçilərinin sayı durmadan artır.

Yerli medianın yazdığına görə, təkcə cəbhə zonasında bu ilin ötən dövrü ərzində 30-dan çox erməni həyatını itirib. Qeyri-döyüş şəraitində də ölən erməni hərbçilərinin sayı az deyil. Qeyd olunur ki, Ermənistan silahlı qüvvələrində bu məqam hətta hüquq mühafizə sistemində ciddi narahatlıqlar doğurur. Baş verən ölüm hallarında məsul olan bir nömrəli şəxs - Ermənistanın müdafiə naziri David Tonoyan isə problemi önləmək üçün hansısa addım atmaq iqtidarında deyil.

Bu günlər Ernənistanda "Müdafiə haqqında" qanuna dəyişikliklər ictimai müzakirəyə çıxarılıb. Belə ki, dəyişikliklərə əsasən ölkədə hərbi könüllü dəstələrin yaradılması nəzərdə tutulur. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan öz "Facebook" səhifəsində bununla bağlı paylaşım edib. Qeyd edilib ki, könüllü xalq qoşunları yaratmaq ehtiyacı qarşı tərəfə layiqli cavab vermək səbəbindən qaynaqlanır. "Xalq ordusu" yaradılması layihəsi ictimaiyyətin müzakirəsinə təqdim edilib. "Müdafiə haqqında" qanuna müvafiq dəyişikliklər edilib: "Qanun layihəsində qeyd olunduğu kimi, milis silahlı hücum və ya hərbi əməliyyat zamanı Ermənistanın hərbi müdafiəsində vətəndaşların könüllü iştirakı sistemidir. Xalq ordusu inzibati bölgüyə görə ərazi prinsipi əsasında fəaliyyət göstərəcək, briqada və batalyonlara bölünmüş hərbi birləşmələrdən ibarət olacaq. Xalq ordusunun ümumi rəhbərliyi yeni yaradılan milis qərargahının köməyi ilə Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi tərəfindən həyata keçirilir".

Ermənistanın belə bir addımı atması onların gerçək ordusunda olan acınacaqlı vəziyyətdən xəbər verir. İşğalçı ölkənin ordusu zəifdir və buna görə də könüllülərin imkanlarından istifadə edilməsi məsələsi gündəmə gətirilir. Artıq Ermənistan rəhbərliyi anlayır ki, həqiqi hərbi xidmətlə bağlı tələb onlardakı silahlı qüvvələrin komplektləşməsini təmin etmir. Bu səbəbdən də Ermənistanda "xalq ordusu" adlı bir formatın reallaşdırılmasına dair belə niyyət ortaya atılıb. Artıq ermənilər qanunvericilik bazasını buna uyğunlaşdırırlar. Digər tərəfdən, məqsəd dünyada yaşayan ermənilərin də hərbi xidmətə cəlb edilməsidir. Bunun başlıca səbəbi isə çağırışçıların Ermənistan ordusunda xidmət etmək istəməməsilə bağlıdır.

Ölkədə yaşanan demoqrafik problem səbəbindən ordunun şəxsi heyətlə təminatı sürətlə pisləşməkdə davam edir. Ön cəbhəyə göndərməyə artıq resurs yoxdur. Digər tərəfdən, orduda yaranan xaos səbəbindən gənclərin silahlı qüvvələrdə xidmətdən yayınması adi xarakter daşıyır.

Ardı 6-cı səh.

## Qırğız Respublikasının Prezidenti zati-aliləri cənab Sooronbay Jeenbekova

Hörmətli cənab Prezident!

Qırğız Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan-Qırğızıstan əlaqələri, ənənəvi dostluq və əməkdaşlıq münasibətlərimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bəşəriyyətin COVID-19 pandemiyası ilə mübarizə apardığı bir dövrdə Azərbaycan xalqının qardaş Qırğızıstan xalqı ilə həmrəy olduğunu vurğulamaq istəyirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2020-ci il*

## Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha

Əlahəzrət!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Malayziya dostluğu və əməkdaşlığının daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Dünyanın üzləşdiyi COVID-19 pandemiyası ilə mübarizədə Azərbaycan xalqının Malayziya xalqı ilə həmrəy olduğunu qeyd etmək istəyirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Malayziyaya daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2020-ci il*

## Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə

### Nazirlər Kabinetinin Qərarı

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 30 sentyabr saat 00:00-dək uzadılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş Naziri***

*Bakı şəhəri, 29 avqust 2020-ci il*

# Can Allahın əmanətidir

## Məhərrəmlikdə və Aşura günündə karantin qaydalarına əməl edin ki, sağlamlığınız təhlükə ilə üzləşməsin

2020-ci il başlayandan pandemiyanın tələblərinə uyğun olaraq bütün sahələrdə olduğu kimi, dini inanclarımızla bağlı adət və ənənələrimizin icrasında da müəyyən dəyişikliklər etməyə məcbur olduq. Nazirlər Kabineti yanında Operativ Qərargah məscid və ziyarətgahlarda təziyə mərasimlərinin keçirilməməsini, ibadətlərin müvəqqəti dayandırılmasını qərara alıb. Bu məcburi addımın atılmasında isə əsas məqsəd vətəndaşlarımızın həyat və sağlamlığının təhlükəsizliyidir.

Dinimiz islamın əsas şərtlərindən biri də insan sağlamlığının qorunmasıdır. Məlum olduğu kimi, bu il Məhərrəm ayı və Aşura da dünyanın ən təhlükəli və riskli vaxtlarına, yəni koronavirus pandemiyası dövrünə təsadüf edib.

Ardı 4-cü səh.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti dünya mətbuatında







Yunanıstanın "VolosPress" nəşri və "Goodnet" xəbər portalı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti barədə məqalələr yayıb.

Yazılarda Mehriban Əliyevanın Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti kimi səmərəli fəaliyyətindən, beynəlxalq humanitar təşkilatlar olan UNESKO və ICESCO-nun xoşməramlı səfiri olaraq dünya mədəni irsinin qorunması, Azərbaycanın beynəlxalq miqyasda tanıdılması işinə mühüm töhfələrindən bəhs edilir.

AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsi əsasında hazırlanan yazılarda qeyd olunur ki, müasir müstəqil Azərbaycanın inkişafına xidmət etmək, sosial məsələlərin həlli, şəfqət və mənəviyyat ideyalarına sədaqət, yardıma möhtac olanların dadına yetmək Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsasını təşkil edir. Vurğulanır ki, Mehriban Əliyeva Prezident İlham Əliyevlə çiyin-çiyinə Azərbaycanın dinamik inkişafına böyük töhfə verir. Birinci vitse-prezident sosial məsələlərə, əhalinin aztəminatlı təbəqəsinin problemlərinin həllinə xüsusi diqqət göstərir.

Məqalələrdə, həmçinin Birinci vitse-prezidentin rəhbərliyi ilə COVID-19 pandemiyasına qarşı mübarizə tədbirlərindən, Heydər Əliyev Fondunun dəstəyi ilə modul tipli xəstəxanaların istifadəyə verilməsindən bəhs olunur. Bundan başqa, Mehriban Əliyevanın çoxşaxəli və xoşməramlı fəaliyyətinin həm Azərbaycanda, həm də dünya miqyasında yüksək qiymətləndirildiyi, onun bir çox beynəlxalq mükafatlara layiq görüldüyü vurğulanır.

* * *

Yaxın Şərq və Şimali Afrika ölkələrinin kütləvi informasiya vasitələri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında məqalələr yayıb. Həmin məqalələr AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsi əsasında hazırlanıb.

Misirin "Aldiplomasy", Birləşmiş Ərəb Əmirliklərinin "Gulf News", "Dubai Hospitality News", "Almanara", "Meri Media", "Dubai Global News", "Iconic Lady", Əlcəzairin "Əl Hərir", İordaniyanın "Nayrouz", Küveytin "Nabd" və s. mətbuat orqanlarında ərəb və ingilis dillərində dərc olunmuş məqalələrdə Mehriban Əliyevanın Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ICESCO-nun xoşməramlı səfiri kimi çoxşaxəli səmərəli fəaliyyətindən bəhs edilir.

Bildirilir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyətinin kökündə mənsub olduğu xalqa sevgi dayanır. Vətəninə və xalqına sonsuz məhəbbətinə görə onu hamı sevir. O, Azərbaycanın ən böyük təəssübkeşlərindən biri, xalqın xoşbəxt gələcəyinə hesablanan bir çox layihələrin müəllifidir.

Yazılarda Mehriban Əliyevanın UNESKO və ICESCO-nun xoşməramlı səfiri kimi dünya mədəni irsinin qorunması, sivilizasiyalararası dialoqun inkişafı, Azərbaycanın beynəlxalq miqyasda tanıdılması işinə verdiyi töhfələr diqqətə çatdırılır.




Ərəbdilli oxuculara təqdim edilən məqalələrdə Mehriban Əliyevanın fotoşəkilləri də yerləşdirilib.

Qeyd edək ki, Mehriban Əliyevanın fəaliyyəti barədə məqalələr AZƏRTAC-a istinadla Çinin "China Daily" qəzeti, Avropa İttifaqının "EU Politics" portalı, Avropa Xəbər Agentliyi, Qazaxıstanın, Rumıniyanın, Moldovanın, Bolqarıstanın, Xorvatiyanın, Yunanıstanın, Rusiyanın, Qırğızıstanın, Özbəkistanın, İndoneziyanın kütləvi informasiya vasitələri tərəfindən də yayılıb.

* * *

Bolqarıstanın "Cross" xəbər portalı Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti, Azərbaycanla Bolqarıstan arasında əməkdaşlıq barədə məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Mehriban Əliyevanın Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti kimi səmərəli fəaliyyətindən, beynəlxalq humanitar təşkilatlar olan UNESKO-nun və ICESCO-nun xoşməramlı səfiri olaraq dünya mədəni irsinin qorunması, Azərbaycanın beynəlxalq miqyasda tanıdılması işinə verdiyi töhfələrdən bəhs edilir. Qeyd olunur ki, məhz onun səyləri nəticəsində 2019-cu ilin iyulunda UNESKO Dünya İrs Komitəsinin 43-cü sessiyası Azərbaycanda keçirilib.

Bildirilir ki, Mehriban Əliyeva sosial məsələlərə, əhalinin aztəminatlı təbəqəsinin problemlərinin həllinə xüsusi diqqət göstərir. Qısa müddətdə 300 mindən çox qaçqın və məcburi köçkünün həyat şəraiti yaxşılaşdırılıb, bir il ərzində 5293 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Bundan başqa, Aprel döyüşlərində yaralanan əsgər və zabitlərin müalicəsi təşkil edilib.

Məqalədə diqqətə çatdırılır ki, Bolqarıstanın Veliko Tırnovo şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunan "Trapezitsa" Memarlıq Muzeyi Qoruğu açılıb. Veliko Tırnovo şəhərinin mədəni irsinin qorunmasındakı xidmətlərinə görə Mehriban Əliyevaya şəhərin fəxri vətəndaşı diplomu təqdim olunub. Yazıda Birinci vitse-prezidentin iki ölkə arasında münasibətlərin sürətli inkişafına töhfələri barədə geniş məlumat verilir.

# *Prezidentin köməkçisi:* "Son vaxtlar Ermənistanın silahlandırılması Azərbaycan ictimaiyyətini ciddi narahat edir"




"Son vaxtlar Ermənistanın silahlandırılması Azərbaycan ictimaiyyətini ciddi narahat edir". AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib ki, bu məsələ Prezident İlham Əliyev tərəfindən Rusiya Prezidenti Vladimir Putin qarşısında da qaldırılıb. Müxtəlif istiqamətlərdə Rusiyadan yüklərin daşınması həyata keçirilir və bu, ictimaiyyətimizi narahat edir. Rusiya tərəfinin izahı bizi tam qane etmir. Biz gözləyirik ki, hansı əsaslarla Ermənistanın intensiv silahlandırılmasının davam etdiyinə aydınlıq gətirilsin. Ermənistan Tovuz hadisələri zamanı işğalçılıq siyasətini davam etdirdiyini göstərdi. Guya təyyarələrin tikinti materialları daşıdığı barədə cavab bizi qane etmir. Yük materialları başqa yollarla da daşına bilər.

* * *

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev onu da deyib ki, son vaxtlar Ermənistan Cenevrə Konvensiyasını tez-tez xatırladır. Halbuki Ermənistan Cenevrə Konvensiyasını ən kobud formada pozan ölkədir. Cenevrə Konvensiyasından danışan Ermənistanın Azərbaycanı raket hücumları ilə hədələməsi riyakarlığın növbəti nümunəsidir.

Prezidentin köməkçisi bildirib ki, Ermənistan mülki azərbaycanlılara qarşı cinayətlər, soyqırımları törədib. Dörd mindən çox azərbaycanlı girov və əsir barədə hələ də məlumatımız yoxdur. Ermənistan beynəlxalq təşkilatların vasitəçiliyi ilə aparılan danışıqlar çərçivəsində də əməkdaşlıq etmir. Bu isə Ermənistanın beynəlxalq hüquqa, Cenevrə Konvensiyasına riyakar yanaşdığının göstəricisidir. Şahbaz Quliyev və Dilqəm Əsgərov üçün qurulmuş qondarma məhkəmələr də göz önündədir.

* * *

"Son günlər Ermənistanda könüllülər adı altında mülki şəxslərdən ibarət hərbi qruplaşmaların yaradılması ilə bağlı qərarlar qəbul edilib. Bu qərarları Ermənistanda demoqrafiya ilə əlaqədar mövcud olan böhranlı vəziyyətin növbəti nümunəsi kimi qəbul edirik. Bu, Ermənistanın silahlı birləşmələrini komplektləşdirməkdə çətinlik çəkdiyini göstərir". AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib: "Ermənistan rəhbərliyi bolşeviklərə xas formada silahlı birləşmələr yaratmaq istəyir ki, bu birləşmələrdən öz çirkin məqsədləri üçün, o cümlədən ölkədaxili məsələlərdə istifadə etsin. Ermənistan müxtəlif ölkələrdən olan muzdluları ön xətdə yerləşdirir, onlar öləndə isə bu faktları gizlədirlər. Belə də təqdim edirlər ki, guya Ermənistan silahlı bölmələrində itki yoxdur. Çünki həmin şəxslər Ermənistan silahlı qüvvələrində qeydiyyatda deyillər. Ancaq hər kəs bunu yaxşı bilir. Elə Ermənistanın ictimai-siyasi dairələrinin də, mediasının da bu suallarla Ermənistan rəhbərliyinə müraciət etmələri yaxşı olardı.

Tovuz hadisələrində də biz bir daha şahid olduq ki, Ermənistan silahlı qüvvələrinin sərhəd boyunca törətdiyi hərbi avantüra və Azərbaycan silahlı qüvvələrinin rəşadətli cavabları çərçivəsində onlar o xətti şəxsi heyətlə komplektləşdirə bilmirdilər. Ona görə də Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsindən şəxsi heyəti, həmçinin Yaxın Şərq ölkələrindən olan muzdlu insanları ön xətdə yerləşdirməyə çalışırdılar".

Prezidentin köməkçisi onu da qeyd edib ki, Ermənistan Suriyada münaqişədə iştirak edir, həmin ölkədə şəxsi heyəti var. Bundan başqa, Ermənistan Suriyadan silahların alınması ilə bağlı "qara ticarət"lə məşğuldur.

* * *

"Ermənistanın baş naziri Nikol Paşinyan yenə də Ermənistan-Azərbaycan münaqişəsi və Tovuz hadisələrinin mahiyyətini təhrif edən açıqlama ilə çıxış edib. Birincisi, o qeyd edir ki, Tovuz hadisələri Ermənistan-Azərbaycan münaqişəsinin hərbi həllinin olmadığını göstərdi. Əgər Ermənistan tərəfi münaqişənin hərbi həlli yolunun olmadığını iddia edirsə və belə bir istəyi varsa, ona görə, ilk növbədə, hərbi işğal rejiminə son qoyulmalıdır. Ermənistan qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır ki, bu tələb də BMT Təhlükəsizlik Şurasının qətnamələrində təsbit edilib".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, Ermənistan təcavüzkar dövlətdir və bu, 1974-cü ildə BMT Baş Assambleyasında təcavüz aktının qiymətləndirilməsi ilə bağlı sənədlərdə və BMT Nizamnaməsində təsbit olunub. Ona görə də Ermənistan tərəfi münaqişənin hərbi həllinin olmadığını iddia edirsə, ilk növbədə, hərbi işğal faktına son qoymalıdır.

Nikol Paşinyan başda olmaqla Ermənistan rəhbərliyinin Tovuz hadisələrini özləri üçün "qələbə" kimi təqdim etməyə çalışdığını bildirən Hikmət Hacıyev deyib: "Birincisi, Tovuz hadisələri açıq şəkildə göstərdi ki, bu, Ermənistanın Azərbaycana qarşı növbəti təcavüz aktıdır. Bu, əvvəlcədən planlaşdırılmış hərbi əməliyyat idi. Buna baxmayaraq, Ermənistan heç bir məqsədinə nail ola bilmədi. Bir daha da qeyd etmək istərdik ki, Azərbaycanın Ermənistan-Azərbaycan dövlət sərhədi boyunca hər hansı hərbi məqsədi yoxdur. Azərbaycan Silahlı Qüvvələrinin məqsədi ölkəmizin sərhədlərinin toxunulmazlığını və sərhədə yaxın yaşayan mülki Azərbaycan əhalisinin təhlükəsizliyini təmin etməkdir. Bu xüsusda Azərbaycan Silahlı Qüvvələri Ermənistanın bu təxribatının qarşısını rəşadətlə aldı və erməni silahlı qüvvələri geri oturduldu. Onlar bu gün də öz itkilərini erməni xalqından gizlətməkdə davam edirlər. Nikol Paşinyan bu hərbi avantürizmə görə erməni xalqı qarşısında cavab verməlidir. Bu təxribata görə Ermənistanın siyasi-hərbi rəhbərliyi bilavasitə məsuliyyət daşıyır".

Nikol Paşinyanın, eyni zamanda guya bu hərbi əməliyyatlar nəticəsində Ermənistan müdafiə sənayesinin istehsal etdiyi hərbi təyinatlı məhsulların öz keyfiyyətini göstərdiyini iddia etdiyini deyən Prezidentin köməkçisi vurğulayıb ki, Ermənistanda nələrin istehsal olunduğu hər kəsin gözü qarşısındadır. Ermənistanın sənaye və iqtisadiyyatı olmadığı kimi, müdafiə sənayesi də yoxdur. Bu da Ermənistan rəhbərliyinin öz xalqını aldatmaq və Tovuz avantürasına görə öz xalqı qarşısında bəraət qazanmaq cəhdindən başqa bir şey deyil.

"Bir daha qeyd etmək istərdik ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini geri oturtdu, ölkəmizin sərhədlərinin təhlükəsizliyini, müdafiəsini təmin etdi və Azərbaycanın hər hansı bir ərazisinin işğal altına düşməsinin qarşısını qətiyyətlə aldı. Ermənistanın bu təxribatı törətməkdə məqsədlərindən biri diqqəti ölkənin daxilindəki kəskin sosial-iqtisadi, siyasi problemlərdən yayındırmaq idi", - deyə Hikmət Hacıyev qeyd edib.

# Ölkəmizdə sanitar-epidemioloji vəziyyət nəzarət altındadır




"Azərbaycanda sanitar-epidemioloji vəziyyət nəzarət altındadır. Koronavirusla bağlı vəziyyət sabitləşib və yoluxmalar azalıb". AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində deyib.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycanda COVID-19 infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması istiqamətində həyata keçirilən preventiv tədbirlər nəticəsində, eləcə də əhalinin tətbiq olunan karantin və gigiyena qaydalarına daha ciddi və məsuliyyətlə əməl etməsi, dövlət-vətəndaş həmrəyliyi sayəsində ölkədəki sanitar-epidemioloji vəziyyət stabilləşib, yoluxma hallarının kəskin azalmasına nail olunub.

"Bugünkü rəqəmlər bizi sevindirir. Bununla yanaşı, bir daha vətəndaşları xüsusi karantin rejiminin tələblərinə riayət etməyə çağırırıq", - deyə Hikmət Hacıyev bildirib.

* * *

"Azərbaycan vətəndaşlarının xaricdən gətirilməsi ilə bağlı gələn həftəlik proqramımız hazırdır, qərarlarımız da var. Bu da əsasən Azərbaycan-Rusiya quru sərhədi boyunca vətəndaşlarımızın ölkəyə gətirilməsi ilə bağlıdır", - deyən Prezidentin köməkçisi bildirib ki, Mərkəzi Asiya ölkələrindən, o cümlədən Türkmənistan və Qazaxıstandan Azərbaycan vətəndaşlarının testdən keçərək müxtəlif qruplarla bərə nəqliyyatı vasitəsilə ölkəmizə gətirilməsi davam etdirilir. Bundan əlavə, Bakı-İstanbul istiqamətində reyslər də fəaliyyət göstərir.

"Vətəndaşlarımızı zərurət olmadığı təqdirdə xarici səfərlər etməməyə çağırırıq", - deyə Hikmət Hacıyev qeyd edib.

# Hikmət Hacıyevin Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı açıqlaması "Diplomat in Spain" portalında dərc edilib

İspaniyanın geniş oxucu auditoriyasına malik "Diplomat in Spain" elektron portalında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyası ilə bağlı müsahibəsi əsasında geniş məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın yeni Milli Təhlükəsizlik Strategiyasının şovinizm, ksenofobiya və irqçiliyi, faşist Qaregin Njdenin ideologiyasını təbliğ etdiyi, bunun bariz nümunəsi olaraq Ermənistanın Azərbaycan xalqına qarşı terrorçuluq siyasəti həyata keçirdiyi, ölkəmizə məxsus qədim tarixi və dini abidələrin dağıdıldığı qeyd olunur.

Xüsusi olaraq vurğulanır ki, strategiyada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair saxtalaşdırılmış faktlara və arqumentlərə əsaslanan istinadlar beynəlxalq ictimaiyyətin diqqətini münaqişə ilə bağlı reallıqlardan yayındırmaq məqsədi güdür. Məqalədə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin və ətraf yeddi rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu, Ermənistan tərəfindən azərbaycanlılara qarşı soyqırımı, etnik təmizləmə, müharibə cinayətlərinin törədildiyi diqqətə çatdırılır.

Qeyd olunur ki, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur, lakin qətnamələr bu günədək Ermənistan tərəfindən icra edilməyib. Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyətlər həyata keçirməsi, o cümlədən qeyri-qanuni məskunlaşdırma siyasəti aparması, təmas xəttində və Ermənistan-Azərbaycan dövlət sərhədində hərbi təxribatlar törətməsi, məqsədli şəkildə mülki əhalini və obyektləri hədəfə alması Ermənistan tərəfinin münaqişə ilə bağlı danışıqlarda maraqlı olmamasının, süni şəkildə status-kvonu saxlamaq və işğal faktını möhkəmləndirmək cəhdlərinin bariz təzahürüdür.

Məqalədə Ermənistanın işğal faktını xalqların öz müqəddəratını təyinetmə prinsipi ilə ört-basdır etməyə çalışdığı qeyd olunaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın ərazi bütövlüyünün heç vaxt danışıqlar mövzusu olmayacağı, Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcəyi vurğulanır.

# Nazirlər Kabineti yanında Operativ Qərargah xüsusi karantin rejiminə dəyişikliklərə dair qərar qəbul edib

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən ölkə üzrə xüsusi karantin rejiminin tətbiqi qaydalarında bəzi dəyişikliklər edilir.

Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, Nazirlər Kabinetinin 310 №li Qərarına əsasən ölkə üzrə xüsusi karantin rejiminin müddəti 2020-ci il sentyabrın 30-dək uzadılır.

Nazirlər Kabinetinin 311 №li Qərarına əsasən sərtləşdirilmiş xüsusi karantin rejiminin yalnız Bakı, Sumqayıt şəhərlərinin və Abşeron rayonunda 2020-ci ilin sentyabrın 30-dək tətbiqi nəzərdə tutulur.

31 avqust saat 06.00-dan muzey və sərgi zallarının fəaliyyəti bərpa olunur *(Bu Qərara əsasən fəaliyyətinə icazə verilən muzey və sərgi zallarının fəaliyyəti mövcud qaydalara, sanitariya normalarına və metodiki göstərişlərin tələblərinə uyğun təşkil olunmalıdır).*

Fərdi, qrup halında tədris və repetitor xidmətlərinin fəaliyyətinə icazə verilir (10 nəfərdən artıq şəxsin iştirakı ilə keçirilən məşğələlər istisna olmaqla).

Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti 2020-ci ilin sentyabrın 15-dək dayandırılır.

Şənbə və bazar günləri ictimai nəqliyyatın hərəkətinin dayandırılması 2020-ci il sentyabrın 30-dək tətbiq ediləcək.

Beləliklə, 2020-ci il:

- **5 sentyabr saat 00:00-dan 7 sentyabr saat 06:00-dək;**
- **12 sentyabr saat 00:00-dan 14 sentyabr saat 06:00-dək;**
- **19 sentyabr saat 00:00-dan 21 sentyabr saat 06:00-dək;**
- **26 sentyabr saat 00:00-dan 28 sentyabr saat 06:00-dək ictimai nəqliyyatın hərəkəti dayandırılır.**

Nazirlər Kabinetinin 312 №li Qərarı ilə xüsusi karantin rejimi dövründə təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən qrafik müəyyənləşib.

Belə ki:

**Məktəbəqədər təhsil müəssisələrində** - 2020-ci il sentyabrın 15-dən;

**Ümumi təhsil müəssisələrində:**

- ümumi təhsilin ibtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə - 2020-ci il sentyabrın 15-dən;

- xüsusi məktəblərdə, xüsusi internat məktəblərində, ümumtəhsil internat məktəblərində, inteqrasiya təlimli internat tipli təhsil müəssisələrində, inteqrasiya təlimli internat tipli gimnaziyalarda, valideyn himayəsindən məhrum uşaqlar üçün ümumtəhsil internat məktəblərində - 2020-ci il sentyabrın 15-dən;

- ümumi təhsilin məktəbəhazırlıq mərhələsi (5 yaş) üzrə - 2020-ci il oktyabrın 1-dən;

- ümumi təhsilin ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə - 2020-ci il oktyabrın 1-dən;

- ümumi təhsilin tam orta təhsili səviyyəsi (X-XI siniflər) üzrə - 2020-ci il oktyabrın 15-dən.

**Peşə təhsili müəssisələrində:**

- qısamüddətli kurslar üzrə - 2020-ci il oktyabrın 1-dən;

- peşə təhsilinin bütün səviyyələri üzrə - 2020-ci il oktyabrın 15-dən.

**Ali və orta ixtisas təhsili müəssisələrində:**

- I kurs tələbələri üçün - 2020-ci il oktyabrın 1-dən;

- II və yuxarı kurs tələbələri üçün siyahısı Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla və hər bir ixtisasın xüsusiyyəti nəzərə alınmaqla təhsil müəssisələrinin müəyyən etdiyi ixtisaslar üzrə - 2020-ci il oktyabrın 15-dən;

Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində yaş qruplarından və siniflərdən asılı olaraq Qərarın 1.2-ci bəndində göstərilən tarixlərdə tədris prosesi başlanır.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikasında təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydalarını 10 gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etməlidir.

Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı inzibati ərazi vahidlərinin ərazisində sanitar-epidemioloji vəziyyətin əhalinin sağlamlığına təhlükə yaratmadığı barədə müvafiq olaraq Azərbaycan Respublikasının Baş dövlət sanitariya həkiminin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin müvafiq rəyi olduğu halda, təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin əyani formada aparılması bu Qərarla müəyyən edilən tarixlərdən əvvəl bərpa edilə bilər.

Qərarın qüvvədə olduğu müddətdə təhsilalanların və təhsilverənlərin iştirakı ilə tədris prosesindən kənar kütləvi tədbirlərin keçirilməsi təxirə salınır.

# *Operativ Qərargah:* "Azərbaycanda xüsusi karantin rejimi sentyabrın 30-dək uzadılıb"

Azərbaycan Respublikasında yeni növ koronavirus (COVID-19) infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması istiqamətində həyata keçirilən preventiv tədbirlər nəticəsində, eləcə də əhalinin tətbiq olunan karantin və gigiyena qaydalarına daha ciddi və məsuliyyətli əməl etməsi, dövlət-vətəndaş həmrəyliyi sayəsində ölkədəki sanitar-epidemioloji vəziyyət stabilləşib, yoluxma hallarının kəskin azalmasına nail olunub.

Sanitar-epidemioloji vəziyyətə uyğun olaraq, avqustun 5-dən sərt karantin rejiminin mövcud olduğu şəhər və rayonlarda, eləcə də ölkə üzrə bəzi məhdudiyyətlər aradan qaldırılmış və yumşalmalar təmin edilib.

Azərbaycan Respublikasi Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, bununla bərabər əldə olunmuş uğurların möhkəmləndirilməsi, insanların həyat və sağlamlığının səmərəli qorunması məqsədilə, eləcə də dünyada COVID-19 pandemiyası ilə əlaqədar vəziyyətin hələ də qeyri-qənaətbəxş olduğu nəzərə alınaraq, Azərbaycan Respublikasının ərazisində tətbiq olunan xüsusi karantin rejiminin 2020-ci il 30 sentyabr saat 00:00-dək uzadılması qərara alınıb.

Həmçinin virusa yoluxma dinamikasına və mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Yevlax şəhərləri və Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Salyan rayonları 2020-ci il 31 avqust tarixdən etibarən sərt karantin rejimi zonasından çıxarılır.

Yoluxma hallarının yüksək olduğu Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda bəzi əlavə məhdudiyyətlər hələ davam edəcək.

Ölkə üzrə muzeylərin və sərgi zallarının fəaliyyəti ilə bağlı məhdudiyyətlər aradan qaldırılır.

Xüsusi karantin rejiminin qaydalarına riayət etməklə və 10 nəfərədək qruplarda fərdi tədris və repetitor xidmətlərinə icazə verilir.

Sanitar-epidemioloji vəziyyət təhlil edilərək rayonlararası gediş-gəlişin tam açılması məsələsinə təkrar baxılacaq.

Sərt karantin rejimi mövcud olan şəhər və rayonlarda həftəsonları aşağıdakı tarixlərdə ictimai nəqliyyat fəaliyyət göstərməyəcək:

*5 sentyabr saat 00:00-dan*
*7 sentyabr saat 06:00-dək;*
*12 sentyabr saat 00:00-dan*
*14 sentyabr saat 06:00-dək;*
*19 sentyabr saat 00:00-dan*
*21 sentyabr saat 06:00-dək;*
*26 sentyabr saat 00:00-dan*
*28 sentyabr saat 06:00-dək.*

Virusa yeni yoluxma hallarına yol verməmək üçün bir daha bütün vətəndaşlarımızı tətbiq olunmuş karantin rejiminin tələblərinə və tibbi-profilaktik qaydalara riayət etməyə, sosial məsafə saxlamağa, tibbi maskalardan istifadə etməyə çağırırıq.

# İlham Əliyevin islahatlarına yüksək beynəlxalq qiymət

## Azərbaycan BMT-nin "Davamlı inkişaf hesabatı - 2020" sənədində 166 ölkə arasında 54-cü pillədə qərarlaşaraq dünyada hər 3 ölkədən ikisini qabaqlaya bilib

*Əvvəli 1-ci səh.*

### Dayanıqlı İnkişaf Məqsədləri - qarşıya qoyulmuş hədəflər

Bütün bunlarla yanaşı, Azərbaycanda BMT tərəfindən Dayanıqlı İnkişaf Məqsədləri üçün müəyyənləşdirilən vəzifələr uğurla icra olunur.

İyulun 8-də Prezident İlham Əliyevlə BMT Baş katibi Antonio Quterreş arasında keçirilən telefon danışığı zamanı Baş katib Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində fəal surətdə çalışdığını bildirmişdi.

Xatırladaq ki, 2016-2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf Məqsədləri BMT üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən sammitində elan edilib. Qarşıya qoyulmuş məqsəd və hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. Elə həmin sammitdə Azərbaycan da Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub. Ölkədə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb və dayanıqlı inkişafa dair I Bakı forumu keçirilib. Bu ilin oktyabr ayında isə II Bakı forumunun keçiriləcəyi gözlənilir.

Dayanıqlı İnkişaf Məqsədlərində qarşıya qoyulmuş hədəflər böyükdür. Burada 17 prioritet vəzifə qarşıya qoyulub. Yeni məqsədlərin özünəməxsusluğu isə onların bütün ölkələri, o cümlədən yoxsul, zəngin və orta gəlirli ölkələri planetin mühafizəsini təmin etmək şərtilə, tərəqqini təşviq etmək üçün tədbirlər görməyə səsləməsindədir. Azərbaycan dövləti bütün bu 17 məqsədi əhatə edən uğurlu dövlət siyasəti həyata keçirməkdədir.

Bir sözlə, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticə etibarilə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin Azərbaycanda daha sürətlə reallaşmasına yol açıb. Ölkədə yoxsulluğun aradan qaldırılması, səhiyyə sisteminin müasir standartlara uyğun yenidən qurulması, əhalinin kommunal problemlərinin, o cümlədən içməli su probleminin səmərəli həlli, ölkənin enerji təhlükəsizliyinin təmin olunması, mövcud təhlükəsizlik, milli həmrəylik mühitinin formalaşması uğurla reallaşdırılır. Qazanılan nailiyyətlər, əldə edilən uğurlu göstəricilər isə son deyil. Bu göstəricilər növbəti mərhələdə daha yaxşı nəticələr əldə etmək üçün əsaslı bazadır.

### Beynəlxalq dəstək və artan nüfuz

Göründüyü kimi, Azərbaycan Prezidentinin həyata keçirdiyi sosial-iqtisadi islahatlar nümunəvi xarakter daşıyır. Bu islahatlar, eləcə də müasir iqtisadi və sosial infrastrukturun formalaşdırılması, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəlməsini təmin edib. 2019-cu ildə reallaşdırılan böyük sosial paketlər və məhz pandemiya dövründə müstəqillik dönəminin ən böyük sosial-iqtisadi paketinin qəbul edilməsi ölkə əhalisinin rifahının yüksəlməsinə mühüm təsir göstərib.

Onu da xüsusi vurğulamalıyıq ki, Azərbaycanın BMT-nin davamlı inkişaf məqsədləri üzrə regional liderə çevrilməsi Prezident İlham Əliyevin təşkilatın xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə üst-üstə düşmüş oldu. Təşkilatın "Davamlı inkişaf məqsədləri indeksi"ndə yüksəliş isə bir daha təsdiq etdi ki, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qlobal gündəliyin formalaşması və həyata keçirilməsində əhəmiyyətli rola malik ölkədir.

Beynəlxalq təşkilatların qəbul etdikləri bu cür hesabatlar, xüsusən də BMT-nin "Davamlı inkişaf hesabatı - 2020"nin göstəriciləri Azərbaycanı dünyada tam müstəqil, azad, inkişaf edən demokratik dövlət kimi tanıdacaq və bundan sonra dünya dövlətləri tərəfindən ölkəmizin mövqeyi daha yaxşı dəstəklənəcək.

Bütün bunlar Prezident İlham Əliyevin tam müstəqil siyasətinə verilən beynəlxalq dəstək olmaqla yanaşı, Azərbaycanın artan nüfuzunun əyani nümunəsidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Həm döyüş, həm də siyasət meydanında üstünlük Azərbaycanın tərəfindədir

## İlham ƏLİYEV: "Biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək"

*Əvvəli 1-ci səh.*

Tovuz döyüşlərində Azərbaycan Ordusunun bir daha öz üstünlüyünü diqqətə çəkən Prezident İlham Əliyev deyib: *"Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik. İki il bundan əvvəl - 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək. Ermənistandan Dağlıq Qarabağa gedən avtomobil yolu bizim nəzarətimizdədir. Vaxtilə - 1990-cı illərin əvvəllərində Naxçıvan ərazisinin bir hissəsini işğal etmiş Ermənistan qüvvələri həmin ərazilərdən qovuldu, çıxarıldı, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı".*

Azərbaycan iqtisadi və digər sferalarda olduğu kimi ordu sahəsində də çox ciddi uğurlar əldə edib. Prezident, Ali Baş Komandan İlham Əliyevin elan etdiyi prioritetlərə uyğun olaraq Silahlı Qüvvələrimiz ən müasir döyüş texnikaları, silah sursatları ilə təchiz edilib, hərbi xidmətin keyfiyyət standartları qabaqcıllar səviyyəsinə çatdırılıb. Bu gün haqlı olaraq Azərbaycanın, sözün həqiqi mənasında, çox güclü orduya malik olması haqda müxtəlif səviyyələrdə fikirlər səsləndirilir. Bu, bizim subyektiv fikirlərimiz deyil, bütövlükdə beynəlxalq hərbi ekspertlərin gəldiyi rəylərdən ibarət olan qənaətdir. Ordumuz, sözün əsl mənasında, güclü və yüksək döyüş qabiliyyətinə malik hərbi gücə çevrilib. Silahlı Qüvvələrimiz torpaqlarımızı işğaldan azad etmək, ərazi bütövlüyümüzü bərpa etmək kimi şərəfli və məsuliyyətli vəzifəni yerinə yetirmək üçün bütün imkanlara malikdir.

İyulun ortalarında erməni hərbi birləşmələrinin təxribatının qarşısının alınması istiqamətində hərbçilərimizin göstərdiyi şücaət, qəhrəmanlıq, sözün həqiqi mənasında, bir dastana çevrilmiş bu hadisə ordumuzun torpaqlarımızı azad etməyə qadir olduğunu əyani nümayiş etdirdi. Bir tərəfdən Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətini nümayiş etdirə bildi, digər tərəfdən zabit və əsgərlərimiz özlərinin yüksək döyüş ruhunu və vətənpərvərlik mövqelərini, qələbə əzmində olduqlarını ortaya qoydu.

### Ermənistanın faşist siması dəyişməyib

Düşmən bu gün çaşqınlıq içindədir. Xatırladaq ki, hələ 4 il əvvəl Ermənistanda ali və yüksək rütbəli zabitlər aprel məğlubiyyətinə görə işdən qovulmuş, həbsə atılmışdılar. Düzdür, Paşinyan indi geri otuzdurulan ordusunun zabitlərini cəzalandıra bilmir. Ona görə ki, hakimiyyətini və komandasını möhkəmləndirmək üçün vaxtilə S.Sarkisyan tərəfindən ordudan qovulan ali rütbəli zabitlərin bəzilərini yenidən xidmətə cəlb edib. amma yenə də işğalçı ölkədə müxtəlif səviyyələrdə Tovuz döyüşlərinin nəticələri təhlil olunaraq Ermənistanın Azərbaycanla müqayisədə zəif olması etiraf edilir.

Ermənistan tərəfinin pessimizmə qapılmasının bir səbəbi də Türkiyənin Azərbaycanın birmənalı və qətiyyətli şəkildə dəstəkləməsi oldu. Türkiyə Prezidentinin, Xarici İşlər və Müdafiə nazirlərinin açıqlamalarında Azərbaycanın tək olmadığı, Türkiyənin sona qədər ölkəmizə dəstək verəcəyi bəyan edildi. Keçirilən birgə hərbi əməliyyatlar isə Ermənistana göz dağı oldu. Düşmənə verilən mesaj kimi də yaddaqalan birgə hərbi əməliyyatlarda iki qardaş dövlətin ordularının bölmələri yüksək peşəkarlıq və bacarıq göstərdilər, birgə fəaliyyətlərin planlaşdırılmasında və icrasında qərargahların və bölmələrin şəxsi heyəti təcrübələrini artırdılar, milli maraqlardan irəli gələn strateji məqsədlərə nail olmaq üçün qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlməyə hazır olduqlarını nümayiş etdirdilər.

Bütün bünlar Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən dərin narahatlıqla izlənilir. Dağlıq Qarabağdakı qondarma rejimin başçısı Araik Aratunyanın Gəncəni vutmaqla hədələməsi də düşmənin məğlubiyyətdən doğan təlaş və həyəcan içərisində olduğunu göstərir. Döyüşdən sonra təhdidedici bəyanatlar səsləndirmək məğlubiyyətin etirafıdır. Separatçı rejimin başçısının bu hədəsi də məğlubiyyətdən irəli gələn isterikadır.

Onu da qeyd edək ki, hələ Aprel döyüşlərindən sonra Ermənistanın yeni təxribatlara əl atacağı gözlənilən idi. Lakin hakimiyyət dəyişikliyi Sarkisyan rejiminin planlarını pozdu. Tovuz təxribatı isə göstərdi ki, demokratiya şüarları ilə hakimiyyətə gələn N.Paşinyan da hakimiyyətini qorumaq, diqqəti daxili çəkişmələrdən yayındırmaq üçün sələflərinin yolunu tutub. Beləliklə, bu hadisə həm də təsdiqlədi ki, hakimiyyət dəyişikliyinə baxmayaraq, Ermənistanın faşist siması dəyişməyib.

### Torpaqlarımızın azad olunacağı gün yaxındadır

Hər bir daxili uğursuzluğu, Azərbaycanın isə güclənməsi Ermənistanı yeni təxribatlara əl atmağa vadar edir. Tovuz döyüşlərindəki məğlubiyyətdən sonra da düşməndən nə desən gözləmək olar. Yaşayış evlərini atəşə tutması, mülki vətəndaşları, hətta körpə və uşaqları qətlə yetirməsi göstərir ki, Ermənistanın işğalçılıq siyasətinin mahiyyətində həm də terror dayanır.

Ermənistan tərəfindən Azərbaycana qarşı indiyədək dəfələrlə təhdidlər səsləndirilib. Azərbaycan isə düşmənin istənilən təhdid və təxribatının qarşısının anında alınacağını döyüş meydanlarında, praktik şəkildə təsdiq edib. Bu baxımdan Ermənistan tərəfindən səslənən istənilən təhdid elə düşmən ölkənin özündə istehza ilə qarşılanır. Güclü ordumuz isə danışıqların nəticəsiz olacağı təqdirdə, işğal olunmuş ərazilərimizin hərb yolu ilə azad edilməsi üçün üstünlüyümüzü təmin edir. Prezident İlham Əliyevin dediyi kimi: "Bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək".

Bəli, indi həm hərbi müstəvidə, həm də diplomatik sferada üstünlük Azərbaycanın tərəfindədir. Ona görə işğal olunmuş ərazilərimizin azad ediləcəyi gün yaxındadır. İstər döyüş, istər siyasət meydanında baş verən hər bir hadisə xalqımızı sürətlə həmin günə yaxınlaşdırır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ermənistan ordusu snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 30 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Əsrik Cırdaxan kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Nəmirli, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## Qubadlının işğalından 27 il ötür

# Həsrətin bitdiyi gün olacaq

Ötən əsrin 90-cı illərinin əvvəlləri Azərbaycanda çox qarışıq bir dövr idi. Həmin günlərin fəlakətini qubadlılılar da yaşamışdı. 1993-cü ilin avqustunda on minlərlə insan doğma yurdundan ayrılmalı olmuşdu.





1930-cu ildə inzibati struktur kimi yaradılan Qubadlı rayonunun ərazisi 802 kvadratkilometrdir. Qubadlı Qarabağ yaylasının cənub şərqində yerləşir. Ermənistanla ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayəti arasındakı ərazini əhatə edir. Şimaldan Laçın, şərqdən Cəbrayıl, cənubdan Zəngilan rayonları ilə həmsərhəddir. Tarixən Qubadlının iqtisadiyyatı yerləşdiyi coğrafi şəraitlə əlaqədar olub. Bol sulu Həkəri və Bərgüşad çayları vadisində yerləşən kəndlərin əhalisi münbit torpaqlardan əkinçilik məqsədilə istifadə edib. Rayon tarixi-mədəni abidələrlə zəngin idi.

Burada IV əsrə aid "Gavur dərəsi" ibadətgahı, 5-ci əsrə aid "Qalalı" və "Göyqala", "Dəmirçilər türbəsi" və digər tarixi abidələr vardı. Həkəri və Bərgüşad boyu kəndlər abadlaşdırılmış, dağ kəndlərinə asfalt yollar çəkilmiş, özünə yaraşıqlı evlər tikənlərin, minik avtomaşınları alanların sayı çoxalmışdı. Rayonda 21 orta, 26 səkkizillik, 15 ibtidai, 2 əyani-qiyabi məktəb var idi. 4 xəstəxana, 33 səhiyyə müəssisəsi, 111 mədəni maarif müəssisəsi, 125 ticarət, 96 ictimai iaşə, 25 məişət xidməti, 11 rabitə müəssisəsi, 48 kənd təsərrüfatı müəssisəsi, 4 zavod və 2 fabrik fəaliyyət göstərən Qubadlının yerüstü və yeraltı sərvətləri bu gün də düşmənlər tərəfindən talanmaqdadır.

1993-cü il avqust ayının 31-də rayonun ərazisi təcavüzkar Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Laçın, Ağdam, Füzuli, Cəbrayıl rayonları işğal olunduqdan sonra mühasirə vəziyyəti yarandığından qubadlılılar doğma yurdlarını tərk etmək məcburiyyətində qaldılar.

Bu gün sayı 38 min 626 nəfər olan Qubadlı rayon sakinləri respublikamızın 41 müxtəlif şəhər və rayonunda məskunlaşıb. Sumqayıt şəhərində 23 min 334, Bakı şəhərində 11 min 157, Abşeron rayonunda 3 min 176 və digər 3 şəhər, 28 kənd rayonunda 959 nəfər qubadlılı məskunlaşaraq yaşayır.

Qubadlı rayonunun idarə, müəssisə, təşkilatları əsasən Bakı və Sumqayıt şəhərlərində, eləcə də Abşeron rayonunun ərazisində fəaliyyət göstərir. Sumqayıtda yerləşən Qubadlı Rayon İcra Hakimiyyətinin yeni tikilmiş 3 mərtəbəli inzibati binasında 200 nəfərlik iclas zalı, 40 nəfərlik müşavirə zalı, rayon tarix diyarşünaslıq muzeyi var. Rayon icra hakimiyyətinin inzibatı binasının qarşısında müasir tipli yeni park salınıb, böyük fontan quraşdırılaraq müxtəlif növ ağac və gül kolları əkilib.

Məcburi köçkünlərin sosial müdafiəsi rayon rəhbərliyinin daim diqqətindədir. Stansiya Sumqayıt adlanan ərazidə və Sumqayıt şəhər 12-ci mikrorayonunda inşa edilən şəhərciklərdə məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi işi tam başa çatdırılıb. Qəsəbələrin əsas kontingenti bu rayondan olan məcburi köçkünlərdir. Belə ki, stansiya Sumqayıt adlanan ərazidəki şəhərciyə 357, Sumqayıt şəhər 12-ci mikrorayondakı şəhərciyə isə 521 ailə köçürülüb. Bununla yanaşı, Qaradağ rayonu "Ümüd" qəsəbəsinə 19, Şirvan şəhərindəki şəhərciyə 19, "Qobu Park" yaşayış kompleksinə 22, Pirallahı rayonunda salınmış şəhərciyə 9, Kürdəxanı yaşayış kompleksinə 5 və "Qobu Park" qəsəbəsində salınmış şəhərciyə isə 15 Qubadlı ailəsi köçürülüb. Rayon mərkəzi xəstəxanasının yanında Gigiyena və Epidemiologiya Mərkəzinin yeni binası tikilib istifadəyə verilib. Sumqayıt şəhəri 26-cı məhəllədə yerləşən "Şəfa" sanatoriyası ərazisində 800, 12-ci mikrorayon ərazisində 100, 47-ci məhəllə ərazisində 150 nəfərlik mərasim evləri tikilib zəruri avadanlıqlarla təmin edilərək məcburi köçkünlərin istifadəsinə verilib. Eyni zamanda "Şəfa" sanatoriyasının I və II mərtəbəsində olan 74 boş otaq və 1500-dən çox fərdi ev təmir olunaraq məcburi köçkünlərə təhvil verilib. Bakı və Sumqayıt şəhərlərində məcburi köçkünlərin yaşadıqları 150-dən çox evin dam örtüyü əsaslı təmir olunub. Sumqayıtda 40-cı məhəllədə 80 məcburi köçkün ailəsinin məskunlaşdığı 2 bina, Z.Tağıyev qəsəbəsində 50 ailənin məskunlaşdığı bir bina və 112 ailənin yaşadığı fərdi evlər qazlaşdırılmış, şəhərin müxtəlif ərazilərində 10 istirahət guşəsi yaradılmışdır. Xızı rayon Sitalçay kəndində məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə yollara asfalt örtüyü döşənmiş, 1000 metr içməli su xətti çəkilərək çoxdan yaşanan problemə son qoyulmuşdur .

Rayonda 20 min 800 nəfər əmək qabiliyyətli əhali var. Ümumiyyətlə, son illərdə rayon üzrə 4 min 203 yeni iş yeri açılıb. 1612 sahibkarlıq subyekti olan rayonda sahibkarlığın inkişafına dəstək olaraq fiziki və hüquqi şəxslərin qeydiyyata alınması da yeni işlə təmin olunanların sayının çoxalmasına səbəb olub.

Qubadlılılar baramaçılığı inkişaf etdirmək üçün Füzuli və Sabirabad rayonları ərazisində onlara ayrılan sahələrdə əkdikləri 10 min 500 ədəd tut tingələrinə aqrotexniki qaydada qulluq edirlər. Yüksək və keyfiyyətli yem bazasının olması bu il barama istehsalı ilə məşğul olmasına imkan vermiş və nəticədə 1001 kiloqram barama tədarük edilmişdir. Qubadlılıların hazırda 5200 arı ailəsi var. Xüsusilə son illər arıçılığı inkişaf etdirmək üçün müəyyən işlər görülməkdədir. TİKA (Türkiyə İşbirliyi Koordinasiya Agentliyi) və Qubadlı Arıçılar Birliyi birgə yüz on doqquz min manat vəsait yatıraraq arıçılıq məhsullarının qablaşdırılması müəssisəsi yaratmışdılar. Bu müəssisədə 20 nəfər işlə təmin olunub.

Qubadlılılar rayonun mədəni həyatında da fəaldırlar. Rayon icra hakimiyyətinin inzibati binasında (həmin bina Sumqayıt şəhərində yerləşir) muzey fəaliyyət göstərir. Hazırda işıqlı, geniş otaqlarda yerləşən muzeydə 700-dən artıq eksponat toplanıb. Burada rayonun işğal altında olan 93 kəndi barədə geniş məlumat almaq mümkündür. Muzeyin girəcəyində respublikamızın dövlət atributları yerləşdirilib. Böyük zalda müxtəlif guşələr var. "Heydər Əliyev və Azərbaycan" guşəsində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər diqqəti cəlb edir. Muzeydə həmçinin Qubadlı şəhidləri, kəndləri, rayonun ictimai həyatında rol oynamış insanlar barədə məlumatlar toplanıb. Muzeydə həmçinin, əslən Qubadlıdan olan yazıçıların, elm, mədəniyyət xadimlərinin kitabları nümayiş olunur. Xalq qəhrəmanları Qaçaq Nəbi və Həcərə aid əşyalar, onların qəhrəmanlıqlarını əks etdirən rəsm əsərləri də qorunub saxlanılır.

Rayonda dövrün tələbləri səviyyəsində 32 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Son illər ərzində 21 məktəb binası yenidən tikilərək əsaslı təmir edilmişdir. Rayon icra hakimiyyətinin yaxından köməkliyi ilə şagird sıxlığı nəzərə alınaraq Xanlıq 3 saylı, Qəzyan və Xıdırlı məktəblərində əlavə olaraq modul tipli sinif otaqları, Çaytumas kənd məktəb liseyində 9 sinif otağı və 100 nəfərlik akt zalı, Çardaxlı kənd tam orta məktəbində 4 əlavə sinif otağı və məktəbin həyətində yaşıl meydança quraşdırılmışdır.

Qubadlı rayonu torpaqlarımızın bütövlüyü uğrunda mübarizədə 238 şəhid verib. 316 nəfər Qarabağ əlili,100 nəfərdən çox insan isə itkin düşmüş kimi qeydə alınıb. Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 11 nəfər qubadlılı Azərbaycanın Milli Qəhrəmanı adı ilə təltif olunub. Aprel döyüşlərində fərqlənən Həmidov Şükür Nəriman oğluna Azərbaycan Respublikasının Milli Qəhrəmanı, Bərxudarov Mais Şükür oğluna general-mayor hərbi rütbəsi və Qasımov Faiq Qaçay oğluna igidliyə görə I dərəcəli medal verilmişdir.

Şəhidlərin xatirəsinin anılması, onların ailələrinə qayğı rayon rəhbərliyinin daim diqqət mərkəzində olan məsələlərdir. Rayon rəhbərliyi şəhid ailələrini hər vaxt qəbul edir dinləyir, üzləşdikləri problemlərin aradan qaldırılması istiqamətində tədbirlər görür.

Rayonda gənclər siyasəti xüsusi diqqət mərkəzindədir. Rayon Gənclər və İdman İdarəsi əlaqədar təşkilatlarla birgə gənclərdə hərbi vətənpərvərlik hisslərinin güclənməsi, vətənə bağlılıq, pis vərdişlərdən uzaq olmaları məqsədilə müntəzəm olaraq tədbirlər keçirir. İdmançılar üçün yüksək şərait yaradılıb. Hazırda rayonun 3 ümumtəhsil məktəbində idman zalı gənclərin ixtiyarına verilib. Məcburi köçkünlərin sıx məskunlaşdığı Sumqayıt şəhərində yerləşən "Şəfa sanatoriyasın"da müasir idman avadanlıqları ilə təmin olunmuş zalda idmançıların məşq keçməsi və fiziki cəhətdən yarışlara hazırlanması üçün bütün şərait yaradılıb.

Rayon mərkəzi xəstəxanasının poliklinika şöbəsi 4 tibb məntəqəsi ilə birlikdə məcburi köçkünlərə xidmət göstərir. Ötən dövr ərzində 21 min 712 ambulator xəstə qəbul edilərək müayinə və müalicə olunub. xəstəxanada 17 həkim və 34 tibb bacısı çalışır. Beş yüz doxsan iki şəkərli diabet olan xəstə dərman və tibbi ləvazimatla təmin edilib.

Bu gün dünyanı bürüyən koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması və sosial təcridin gücləndirilməsi, yaşayış məntəqələrinin ərazilərində koronavirus infeksiyasına qarşı təmizlik və dezinfeksiya işlərinin aparılması rayon rəhbərliyinin diqqət mərkəzindədir. İnfeksiyanın yayılması hallarının qarşısının alınması, bu sahədə aparılan profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə əhalinin kompakt məskunlaşdığı yerlərdə, Sumqayıt şəhəri 12-ci mikrorayon ərazisində yerləşən 1005 ailənin məskunlaşdığı və stansiya Sumqayıt ərazisində 1001 ailənin məskunlaşdığı məcburi köçkünlər üçün salınmış yeni şəhərcikdə, rayon icra hakimiyyətinin inzibatı binasında, rayonun bütün təhsil müəssisələrində, ümumilikdə 20-dən çox binada sanitar-dezinfeksiya işləri həyata keçirilir və binaların, yataqxanaların girəcəkləri, pilləkən qəfəsləri, həyətyanı sahələr təmizlənir. Pandemiya ilə əlaqədar Məşğulluq Mərkəzi tərəfindən rayondan olan 651 ailəyə 190 manat birdəfəlik yardım edilib. Eyni zamanda 19 nəfər ictimai işlə təmin olunub.

"Biz birlikdə güclüyük" şüarı ilə həyata keçirilən və vətəndaş həmrəyliyini genişləndirən kampaniyalarda qubadlılılar da yaxından iştirak edir. Rayon sakinlərinə ümumilikdə 3300-dən çox ərzaq bağlaması verilib ki, onun da 1356-sı Heydər Əliyev Fondunun payına düşüb.

Rayon əhalisinin məskunlaşdığı ərazinin heç birindən Qubadlı dağları görünmür. Ancaq hər bir qubadlılı, hətta məcburi köçkünlükdə anadan olan körpələr belə, harada yaşamalarından, dünyanın hansı nöqtəsində olmalarından asılı olmayaraq Qubadlı dağlarını öz qəlblərinin nuru ilə görürlər. Və tezliklə doğma yurda qayıdacaqlarına inanırlar. Buna isə Ali Baş Komandan İlham Əliyevin apardığı siyasət, götürdüyü düzgün istiqamət zəmanət verir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Can Allahın əmanətidir

## Məhərrəmlikdə və Aşura günündə karantin qaydalarına əməl edin ki, sağlamlığınız təhlükə ilə üzləşməsin

*Əvvəli 1-ci səh.*



Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri bəyan ediblər ki, Operativ Qərargahın qərarına əsasən, bu il Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda təziyə mərasimləri keçirilməyəcək. Eyni zamanda, Aşura günü ilə əlaqədar kütləvi dini tədbirlərin, ayinlərin keçirilməsi ölkədə yeni növ koronavirusla mübarizədə əldə edilən uğurlara zərbə vurur, vəziyyətin yenidən pisləşməsinə, karantin rejiminin daha da uzanmasına və ya yenidən sərtləşdirilməsinə səbəb ola bilər.

Pandemiya yayılmağa başladığı zamandan etibarən, Ümumdünya Səhiyyə Təşkilatı, mütəxəssislər izdiham, mitinq, ayrı-ayrı mərasimlərin insan həyatı üçün ölümcül təhlükə olduğuna dair ardıcıl açıqlamalar, bəyanatlar verirlər. Çünki qapalı və açıq məkanlarda insanların sıx toplaşması şəraitində COVID-19 inanılmaz sürətlə yayılır. Pandemiya dövrünün məcburi təcrid tədbirləri çərçivəsində dünyanın bütün ölkələrində bu və ya digər şəkildə təcridolunma həyata keçirilib, İslamın vacib şərtlərindən biri olan müqəddəs Həcc ziyarəti, habelə digər dinlərin ayinləri müvəqqəti olaraq dayandırılıb. Ümumiyyətlə, dünyanın bütün ölkələri təkcə dini deyil, bütün sahələrdə insanları bir yerə toplayan tədbirləri təxirə salıblar.

### Həcc ziyarəti təxirə salındı, Məşhəd zəvvarların üzünə bağlandı

Ölkədəki epidemioloji vəziyyət nəzərə alınmaqla Azərbaycanda da Ramazan və Qurban bayramlarında məscidlərdə ənənəvi bayram namazları qılınmadı, Ramazan ayı boyunca ayinlər məscidlərdə icra olunmadı.

Qafqaz Müsəlmanları İdarəsinin rəsmisi Hacı Şahin Həsənli açıqlamasında bildirib ki, islam dini sağlamlığa ciddi önəm verir və can Allahın əmanətidir: "Dinimizdə buyurulur ki, öz əlinizlə özünüzü təhlükəyə atmayın. Bu gün dünyanı bürüyən virus olduqca qorxulu xəstəlikdir və yayılması ciddi fəsadlara, itkilərə səbəb olur. Dinimiz isə bu vəziyyətə rasional yanaşır".

Onun sözlərinə görə, inanclı insanlar məscidlərin açılmasını arzulayırlar: "Amma şəraitlə razılaşmağa məcburuq. Arzu və dua edirik ki, tezliklə bu bəla sona çatsın və həyat öz axarına qayıtsın".

Hacı Şahin qeyd edib ki, son günlərdə yoluxmada artım müşahidə edilir və bu şəraitdə məscidlərə toplaşmaq yolverilməzdir: "Qurban və Ramazan bayramları da bu şəraitdə qeyd olundu, bayram namazları qılınmadı. Ancaq bu vəziyyət tək bizdə belə deyil, Həcc ziyarəti təxirə salındı, Məşhəd zəvvarların üzünə bağlandı. Bütün dünyada bu tendensiya gedir.

Ona görə Məhərrəmlikdə də çalışmaq lazımdır ki, karantin qaydalarına riayət edilsin. Din xadimləri canlı yayımlara çıxa, xütbələr söyləyə, mənəvi ehtiyacları ödəyə bilərlər. Beləliklə, vətəndaşlarımız evlərində qalmaqla mərasimləri qeyd edə bilərlər".

### İranda da məhərrəmlik mərasimləri qadağan edilib

İnanclı insanların dini ayinləri məscidlərdə keçirməyi arzulamaları təbiidir. Lakin nəzərə almaq lazımdır ki, qapalı mühitdə insanların toplaşaraq qaydalara riayət etməsi Məhərrəm ayında xüsusilə çox çətindir. Dini mərasimlərdə yaşından, sosial mənsubiyyətindən asılı olmayaraq, müxtəlif insanlar iştirak edirlər və bu zaman, demək olar, əksər məscidlərdə izdiham yaşanır. Heç bir icma izdihamda karantin qaydalarına riayət etmək məsuliyyətini üzərinə götürə bilmir. Hətta Kərbəlada da din xadimləri pandemiyaya görə Aşura və digər mərasimlərin qeyd olunmaması ilə bağlı müraciət ediblər.

İranın Koronavirusla Milli Mübarizə Komitəsinin qərarına əsasən İranın Tehran vilayətinin məscidlərində matəm mərasimləri (məhərrəmlik mərasimləri) qadağan edilib. Məhərrəmlik ayının başlanması ilə əlaqədar bildirilir ki, Tehran vilayətində koronovirusun güclü şəkildə yayıldığına görə, rəsmilər yeni qərarın icra olunmasını vurğulayıblar. Yeni qərarın elan olunmasına tənqidlər olsa da, İranın dini liderinin İranın Koronavirusla Milli Mübarizə Komitəsinin qərarlarının yerinə yetirilməsi ilə əlaqədar göstərişini nəzərə alaraq məscidlərin imamları, təşkilatçılar və məscidlərin nümayəndələri qapalı məkanda Məhərrəm ayında istənilən matəm mərasimləri, hətta qısa zamanda olsa belə, təşkil etməkdən çəkinməyi bəyan edib. Sadəcə, camaat namazını səhiyyə protokolları əsasında qılmaqla kifayətlənsinlər.

Həmçinin açıq məkanları (məscidlərin həyətləri və sairə) olan məscidlərdə matəm mərasimlərinin keçirilməsi səhiyyə protokolları əsasında baş tuta bilər. Buna görə məscidlərin imamları insanları səhiyyə protokolları ilə əlaqədar məlumatlandırmalıdırlar.

Xarici ölkələrin təcrübəsi göstərir ki, dini ibadət yerlərinin kütləvi tədbirlər üçün açılması həmin ölkələrdə epidemioloji vəziyyətə olduqca mənfi təsir göstərir.

Deməli, bu məsələdə xüsusi riskə getməmək və əldə olunan uğurların davamını təmin etmək başlıca şərtdir.

### Aşurada qan vermək istəyənlərin nəzərinə

Müqəddəs Quran daim birlik və bərabərliyə, sosial məsuliyyətə və xeyirxahlığa çağırır. İnsan sağlamlığının qorunması dinimizin əsas şərtlərindən biridir və onun yerinə yetirilməsi ilə bağlı hər birimizin üzərinə böyük məsuliyyət düşür. Xatırlatmaq yerinə düşər ki, bir müddət öncə Bakıda keçirilmiş aksiyada minlərlə insanın iştirak etməsi sanitar-epidemioloji vəziyyətə mənfi təsir göstərdi. Buna görə də kütləviliyi ilə seçilən, sosial məsafənin saxlanması mümkün olmayan Aşura mərasiminin izdihamla keçirilməsi, yürüşlər təşkil olunması, məscidlərin, ziyarətgahların qarşısında toplaşmaq insanlarımız və cəmiyyətimiz üçün böyük təhlükədir.

Ölkəmizdə hər il Aşura günü təşkil olunan ənənəvi qanvermə aksiyası da bu il məscidlərdə deyil, Mərkəzi Qan Bankının paytaxtda və bölgələrdəki filiallarında həyata keçiriləcək və bu addım koronavirusla əlaqədar ölkə ərazisindəki bütün məscid və ziyarətgahlarda ibadətlərin müvəqqəti dayandırılması səbəbindən atılıb. Milli Hematologiya və Transfuziologiya mərkəzi qan vermək istəyən vətəndaşlara müraciət edib, qanvermə zamanı sosial məsafə saxlamağın və maskadan istifadənin mütləq olduğunu bildirib. Qan vermək üçün Mərkəzi Qan Bankı və bölmələrinə gələcək vətəndaşların fərdi sağlamlıqlarının qorunması məqsədilə sosial məsafə qaydalarına riayət və qoruyucu tibbi maskalardan istifadə etmək kimi tənzimləmə məsələlərində Milli Hematologiya və Transfuziologiya mərkəzinə Azərbaycan Könüllü Təşkilatları İttifaqı da yardımçı olacaq.

Müqəddəs Quran da daim birlik və bərabərliyə, sosial məsuliyyətə və xeyirxahlığa çağırır. Dindarlarımız da insanları hazırkı mürəkkəb vəziyyəti nəzərə almağa dəvət edir, çağırışlar səsləndirirlər. Hər bir vətəndaşımız operativ Qərargahın müəyyən etdiyi qaydalara, verdiyi tövsiyələrə əməl etməli və bu işdə dövlətimizə dəstək olmalıdır.

Əminik ki, müqəddəs dəyərlərə hörmətlə yanaşan, nəcib keyfiyyətləri ilə seçilən və milli-mənəvi dəyərləri hər zaman yüksək tutan xalqımız öz mütəşəkkilliyi, həmrəyliyi sayəsində hazırkı çətinliyi də geridə qoyacaq, dini ayinlərini yaxın gələcəkdə davam etdirəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Sumqayıtda gənclər maarifləndirici aksiya keçirib

Koronavirus infeksiyasının ayrı-ayrı ölkələrdə yayılması gündən-günə daha sürətlənməkdədir. Respublikamızda onun qarşısının alınması, insanların xəstəlikdən müdafiəsi istiqamətində vacib işlər görülür. Vətəndaşların layiqli həyat şəraitinin və təhlükəsizliyinin təmin edilməsi, hazırkı qlobal problemin təsirindən müdafiəsi Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir.



Pandemiyaya qarşı mübarizə respublikamızın hər yerində olduğu kimi, Sumqayıtdada ardıcıl olaraq aparılır. Koronavirus infeksiyasının şəhər ərazisində yayılmasının qarşısını almaq məqsədilə tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər davam etdirilir.

Yeni tədris ilinin yaxınlaşdığı bir zamanda insanların daha çox maarifləndirilməsi vacib olan şərtlərdəndir. Sumqayıt Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə gənclər və idman baş idarəsinin əməkdaşları və könüllülərin iştirakı ilə yeni layihəyə start verilib. Şəhərin müxtəlif ərazilərində, insanların daha sıx toplaşdığı parklarda, mərkəzi küçə və prospektlərdə COVID-19 pandemiyasının yayılması ilə əlaqədar elan olunmuş karantin rejiminin qaydalarına və əhalinin sanitar-epidemioloji normalara daha ciddi riayət etmələri ilə bağlı ictimai maarifləndirici aksiya təşkil olunmaqdadır. Onlar gün ərzində şəhərin bütün istiqamətlərində qrup halında hərəkət edir, ictimai nəqliyyatda, iri marketlərdə, avtomobil servis məkəzlərində, qəsəbə, mikrorayon və məhəllərində insanlala görüşür, pandemiya qaydalarına riayət etməyin vacibliyini bildirirlər. Aparılan söhbətlər öz əməyini yaxşı mənada göstərməkdədir. Son günlər virusa yoluxanların sayının azalması buna canlı sübutdur.

Könüllülər pandemiya qaydalarına ciddi əməl etməyi, vətəndaşların həm özlərinin, həm də ətrafdakı insanların həyatlarını riskə atmamaları üçün daima şəxsi gigiyena qaydalarına əməl etməyi, qapalı məkanlarda və əhalinin sıx olduğu yerlərdə tibbi maskadan istifadə etməyi, sosial məsafə saxlamağı insanların nəzərinə çatdırır. Onlar axşam gəzintisi zamanı da bulvarda, parklarda, istirahət mərkəzlərində vətəndaşlara yaxınlaşaraq tövsiyə və tapşırıqların vaciblyini bildirirlər. Çox yaxşı haldır ki, insanlar qaydalara əməl edirlər. Çünki başa düşürlər ki, qlobal pandemiyaya birlikdə qalib gəlmək mümkündür.

Könüllülər şəhərdə dezinfeksiya işlərinin aparılması istiqamətində də xeyli iş görüblər. Əhali ilə görüşlər zamanı natəmizliyə görə irad tutulan ərazilər əlaqədar təşkilatlar tərəfindən təmizlənir və dezinfeksiya edilir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Avqustun 29-da Bakıda 551 küçə dezinfeksiya edilib







Avqustun 29-da Bakı Şəhər İcra Hakimiyyətinin strukturları tərəfindən paytaxtdakı əsas küçə və prospektlərdə, həmçinin qəsəbələrdə kommunal təsərrüfat xidmətlərinin 40 ədəd xüsusi texnikası və Daxili İşlər Nazirliyinin 20 ədəd xüsusi təyinatlı avtonəqliyyat vasitəsinin köməyi ilə artıq 11-ci dəfə əlavə gücləndirilmiş dezinfeksiya işləri aparılıb.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən bildiriblər ki, xüsusi kimyəvi maddələrin istifadə olunması ilə ümumilikdə 551 küçə dezinfeksiya edilib.

Görülən bu işlər Bakı sakinlərinin həyatının təhlükəsizliyinə yönəldilən tədbirlərin bir hissəsi olaraq gələcəkdə də davam etdiriləcək.






# Azərbaycanda koronavirusa 188 yeni yoluxma faktı qeydə alınıb, 115 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 188 yoluxma faktı qeydə alınıb, 115 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 36 min 174 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 33 min 576 nəfər müalicə olunaraq sağalıb, 529 nəfər vəfat edib. Aktiv xəstə sayı 2069 nəfərdir.

Ötən müddət ərzində 910 min 890 test aparılıb. Dünənki test sayı isə 6384-dür.

# Azərbaycan qazının həm hasilatı, həm də ixracı artıb

Bu ilin ilk 7 ayında Azərbaycanda 22,3 milyard kubmetr qaz hasil edilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 10 faiz çoxdur. Cari ilin əvvəlindən ölkədən qaz ixracı da artıb.

Energetika Nazirliyinin məlumatına görə, mavi yanacaq hasilatının 7 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" yataqlarından, 11 milyard kubmetri "Şahdəniz"dən əldə edilib. SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) üzrə bu dövrdə 4,3 milyard kubmetr qaz hasil olunub.

7 ay ərzində xaricə qaz satışı 7,7 milyard kubmetr təşkil edib. Bu da ötən ilin müvafiq dövrünə nisbətən 16,7 faiz çoxdur. Belə ki, ilin əvvəlindən Türkiyəyə 6,3 milyard kubmetr qaz ixrac edilib. Gürcüstana ixrac edilən qazın həcmi 1,4 milyard kubmetr olub. Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə Türkiyəyə bu müddətdə 2,4 milyard kubmetr qaz nəql edilib.

2018-ci ilin ortalarından indiyədək isə TANAP-la bu ölkəyə göndərilən qazın həcmi təqribən 6,3 milyard kubmetr olub.

Qeyd edək ki, Gürcüstanın və Türkiyənin qaz idxal etdiyi əsas ölkə Azərbaycandır.

Azərbaycan qazını Gürcüstana Cənubi Qafqaz Boru Kəməri (CQBK) çatdırır. Xatırladaq ki, CQBK dünya səviyyəli boru kəməri sistemidir.

Bu xətt Azərbaycanda 443 və Gürcüstanda 248 kilometr məsafə boyu uzanır. Sistemin hər iki ölkədə eləcə də yerüstü obyektləri - kompressor stansiyaları və nəzarət-ölçü qovşaqları var. CQBK Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstana 2006-cı ildən nəql edir. Az sonra isə qaz Gürcüstan-Türkiyə sərhədində CQBK-ya qoşulan 280 kilometrlik əlavə borularla Ərzuruma da çatdırılıb. Odur ki, bütövlükdə bu xətt Bakı-Tiblisi-Ərzurum kəməri adlandırılır. Hazırda Türkiyəyə Azərbaycan qazı eyni zamanda TANAP-la ixrac edilir.




"Şahdəniz-2"dən çıxarılan qazı Türkiyəyə nəql edən TANAP Gürcüstan-Türkiyə sərhədində CQBK-ya qoşulub, Türkiyə-Yunanıstan sərhədində isə TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) birləşib. TANAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin ikinci və ən böyük hissəsidir. Bu səbəbdən də onu "Cənub Qaz Dəhlizi"nin "onurğa sütunu" adlandırırlar. Kəmərin uzunluğu 1850 kilometr təşkil edir.

TANAP Türkiyənin Gürcüstanla sərhədindəki Ərdəhan vilayətinin Posof mahalından başlayaraq 20 şəhər və 67 vilayətindən keçməklə qardaş ölkənin Yunanıstanla sərhədindəki Ədirnə vilayətinin İpsala qəsəbəsinədək uzanır. Təbii qazı "Şahdəniz", eyni zamanda Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql etmək potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyət daşıyan TANAP-ı həmçinin "Enerjinin İpək yolu" adlandırırlar.

TANAP 2018-ci il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb. TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası isə keçən il noyabrın 30-da istifadəyə verilib. TANAP layihəsinə 6,5 milyard dollar xərclənib.

Hazırda TANAP-ın illik ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. İlkin mərhələdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq.

Bu ilin sonunadək TAP-ın da tikintisinin sona çatacağı və onun TANAP-dan qəbul etdiyi qazı Avropaya ötürəcəyi gözlənilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***




# Ərlər yurdu Ərkivan

***Bu** günlərdə Tovuz döyüşlərinin qəhrəmanlarından mayor Anar Novruzovun Ərkivan qəsəbəsindəki evinə başsağlığı verməyə və onun haqqında yazı hazırlamağa gedərkən şəhidimizin ata yurdu barəsində də oxucularımıza söz açmaq qərarına gəldim. İkinci Cahan müharibəsində faşizmə qarşı savaşa 300 igidini göndərmiş (onlardan 100 nəfərdən çoxu ölüm-dirim savaşlarında qəhrəmancasına şəhid olmuş, bəziləri şikəst, bəziləri isə yaralı qayıdıb ömürboyu bədənlərində qəlpə gəzdirmişdir) Ərkivan A.Novruzovun simasında Qarabağ döyüşlərində 18-ci şəhidini torpağa tapşırdı.*



Ərkivandan zəngin təəssüratla qayıtdım. Vətənimizdə Ərkivan kimi böyük tarixi keçmişi, mədəniyyəti və cəsur insanları olan yurd yerlərimiz az deyil. Bu cür qədim yaşayış məskənlərimizi təbliğ edib, həm gənclərimizə, həm də bütün dünyaya göstərmək faydalıdır. Haqqında kitablar yazılmış bir kənd (2007-ci ildən qəsəbə statusu almışdır) təsəvvür edin. Masallı şəhərindən 2 kilometr qərbdə, Viləş çayının sağ sahilində, Lənkəran ovalığında yerləşir Ərkivan. Qərbində Talış dağlarıdır, şərqində Xəzər dənizi, şimalında isə Muğandır. Əlverişli iqlimi var - subtropik zonaya daxildir. Nadir şahın olümündən (1747-ci il) sonra yaranan Talış xanlığının 8 mahalından birinin - Dəştvəndin mərkəzi olub. Əvvəllər də hərbi-strateji məntəqə rolunu oynayan Ərkivanı ələ keçirmək uğrunda XIX əsrin ilk onilliklərində İran ilə Rusiya arasında ağır döyüşlər gedib. İrana ilhaq olmağı heç cür qəbul etmək istəməyən, həm də buna haqlı olan, müstəqilliyə can atan, lakin öz aralarında birləşərək vahid cəbhədə dayanmağı bacarmayan Azərbaycan xanlıqlarının taleyini bu diyar da yaşayıb, başqa sözlə, Ərkivan da rus işğalı altına düşüb. Müharibə meydanına dönən Ərkivan xeyli itkilərlə üzləşib. 1930-cu ilədək, yəni indiki rayonlar təşkil edilənə qədər rayon mərkəzi Ərkivan idi, sonra mərkəz Masallıya köçürülüb.

Arxeoloji qazıntılar burada insanların 20 min ildən bəri - Daş və Tunc dövrlərindən yaşadıqlarını sübut edir. Yəni o, Azərbaycanın qədim yaşayış məskənlərindən biridir. Ərəblərin gəlişindən əvvəl (V-VI əsrlərdə) Ərkivan qala içərisində şəhər kimi mövcud olmuşdur. Araşdırmaçılar "Ərkivan" toponiminin bir neçə mənasını göstərsələr də, "Qala yeri" mənası üzərində dayanan dilçi alim, professor, AMEA-nın həqiqi üzvü Ağamusa Axundovun qənaəti daha inandırıcıdır.

Tarixin çox sınaqlarına sinə gərib Ərkivan igidləri: ərəblərlə döyüşüb, monqolları məğlubiyyətə uğradıb. Bu torpaqda tarixin çox izləri var. Buradakı XIII əsrə aid Şahsəfi bulağı qəsəbənin Səfəvilərlə bağlılığının sübutudur. Şah İsmayıl Xətai 1501-ci ildə rəiyyəti ilə bərabər Ərkivan qalasında bir neçə gün qonaq olmuş, onun ulu babası Şeyx Səfiəddin isə (XIII əsr) burada 7 il daimi yaşamışdır. Ərkivan qalası tam halda dövrümüzə gəlib çatmasa da, tarixi mənbələrdə onun haqqında geniş məlumatlara rast gəlirik. Axarlı-baxarlı bir məkanda, bərəkətli torpaqda qərar tutmuş qəsəbənin sakinləri qədim ənənələrinə sadiq, qonaqpərvər, xeyirxah insanlardır. 13 məhəllənin hər birinin özünəməxsus cəhətləri, yaşlı insanların yaddaşında yaşayan tarixi var. Dosta köksündə yer verən, düşmənə savaş açan ərkivanlılar müxtəlif səbəblərlə bağlı buraya pənah gətirən Ordubad-Naxçıvan köçkünlərinə də (onlar yazıçı M.S.Ordubadinin mənsub olduğu ailədəndirlər), Gəncədən köçüb gələnlərə də istiqanlı münasibət göstərmiş, yer vermişlər. Əsrlər boyu ayrı-ayrı qəbilə və tayfaların nümayəndələri də köçüb Ərkivana sığınmışlar. Qəsəbənin məhəllələri belə yaranıb. Bütün bunlar yazıya alınsa, yenə neçə-neçə kitab yaranar.





Hazırda Ərkivanın əhalisi 19 min nəfərdən çoxdur. Yurdun böyüklüyü və ya kiçikliyi əhalinin sayına və ərazisinin ölçülərinə görə deyil, dünya mədəniyyətinə bəxş etdiyi şəxsiyyətləri ilə sayılır. Bu mənada cəmi 22,94 kvadratkilometr ərazisi olan Ərkivan böyük yer hesab olunmalıdır. 2017-ci ilə qədər olan məlumata görə, buradan ayrı-ayrı elm sahələri üzrə 9 nəfər elmlər doktoru, professor (bəziləri AMEA-nın üzvü olmaqla), 25 nəfər fəlsəfə doktoru, keçmiş SSRİ-də və dünyada tanınan adlı-sanlı idman ustaları, şair, tərcüməçi, publisistlər, kino işçiləri, aktyorlar, müğənnilər, yüksək peşəkarlıq tələb edən digər sənət adamları, din xadimləri Ərkivanı şərəflə təmsil edir, tanıdırlar. Onlardan bəziləri dünyalarını dəyişsələr də, əməlləri, əsərləri, özlərindən sonra qoyduqları izləri ilə əbədiyyət qazanmışlar.

Bəziləri hesab edirlər ki, Ərkivanda ilk təhsil ocağı sovet hökumətinin 1920-ci ildə açdığı, sakinlərin "Ağ məktəb" adlandırdığı təhsil ocağıdır. Amma araşdırmalar göstərir ki, qəsəbədə əvvəllər də mükəmməl təhsil verən savadlı mollalar, mollaxanalar, öz evində uşaqları elmlərin sirləri ilə tanış edən ziyalı adamlar olmuşdur. Hazırda burada 1 tam, 4 ümumi orta məktəb fəaliyyət göstərir və təhsilə maraq son dərəcə yüksəkdir. Hər halda bir qəsəbədən 60-70 il ərzində 34 alimin çıxması böyük nailiyyətdir. Ərkivanlı alimlərin bəziləri başqa ölkələrdə, o cümlədən ABŞ-da yaşayıb fəaliyyət göstərirlər.

Yeri gəlmişkən qeyd edək ki, Ərkivan qəsəbəsindən ölkəmizin cənubuna və şimalına, o sıradan paytaxt Bakıya və Sumqayıta avtobus marşrutları işləyir.

Ərkivanın memarlıq abidələri də diqqəti cəlb edir. 9 məscid, sonradan bərpa edilmiş Ərkivan qalası, sakinlər tərəfindən çəkilmiş bulaqlar, ayrı-ayrı məhəllələrdəki abad, gözoxşayan həyətlər, nisbətən qədim və müasir yaşayış evləri, kəndin inzibati binaları, məktəblər və mədəniyyət evləri, 2 tibb məntəqəsi, poçt, uşaq bağçası qəsəbəyə yaraşıq verir. Burada müasir üslubda tikilmiş mağazalar, istirahət mərkəzləri, idman meydançaları, 4 kərpic, 5 çörəkbişirmə, 2 makaron, 1 şəkər, 1 mineral suqablaşdırma sexləri, 2 dəyirman əhaliyə nümunəvi xidmət göstərir. Göründüyü kimi, qəsəbələrdə bəzi sənaye sahələri də yaradılıb və bunlar əhalinin məşğulluğunu təmin etməkdədir.

Qəsəbə sakinləri əməyə, torpağa, vətənə, soykökünə, din-imana bağlılıqları ilə də diqqəti cəlb edirlər. Halal zəhmət ərkivanlılar üçün həyatın əsasıdır. Həyətlər bağ-bağatın, yaşıllığın içindədir. Sakinlər bağçılıq, əkinçilik, arıçılıq, son vaxtlar kümçülüklə də məşğul olurlar.

Ərkivan şəhər-qala olub, çar hökuməti dövründə hərbi-strateji funksiyası zəifləyib, sovet vaxtı kəndə çevrilib, müstəqillik illərində isə öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Nə qədər ki, ərkivanlı ağsaqqallar və ağbirçəklər var və onlar öz yetirmələrinə ulu baba və nənələrimizin ənənələrinə uyğun istiqamət verirlər, ərlər yurdu Ərkivan daha da inkişaf edəcək, hətta vaxt olacaq ki, şəhərə də çevriləcək. Bu yurd yenə adlı-sanlı elm, incəsənət xadimləri və idman ustaları, dinlə məşğul olan ilahiyyatçılar, torpağı candan əziz tutan qəhrəmanlar - Vətən sevdalıları yetirəcək, dostlara sevinc gətirəcək, üzdəniraq qonşularımıza isə gözdağı olacaq.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Tovuzda 1200 şagird yerlik yeni məktəb binası qapılarını şagirdlərin və müəllimlərin üzünə açacaq



**Respublikamızın bütün bölgələrində olduğu kimi, Tovuz rayonunda da təhsil infrastrukturunun və maddi-texniki bazanın müasirləşdirilməsi, ümumilikdə isə təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə yeni məktəb binaları tikilir, bir çox məktəblər əsaslı təmir edilir. Sovet İttifaqı Qəhrəmanı Yusif Sadıqovun adını daşıyan Bozalqanlı kənd tam orta məktəbi üçün 1200 şagird yerlik yeni məktəb binasında hazırda son tamamlama işləri görülür.**

Məktəbin tikintisinə 2019-cu ilin iyun ayında başlanılıb. 6 korpusdan və 64 sinif otağından ibarət olacaq üçmərtəbəli məktəb binasında ən müasir fənn kabinetləri, laboratoriyalar, idman və akt zalı nəzərdə tutulmuşdur. Binanın həyətində futbol, voleybol, həndbol və basketbol meydançaları yaradılmışdır. Hazırda məktəb kompleksinə elektrik, rabitə xətləri çəkilir, digər kommunikasiya sistemləri quraşdırılır.

Məktəbin direktoru Nüsrət Quliyev deyir ki, kənd gündən-günə böyüdüyündən əhalinin də sayı durmadan artır. Məktəb isə həm köhnə, həm də darısqal olduğundan şagird tutumunda problemlər yaranırdı. Artıq yeni dərs ilindən bu çətinliklərə son qoyulacaq. Belə ki, inşaatçılar yeni məktəb binasını sentyabrın 15-də təhvil verməyi planlaşdırmışlar.

Məktəbdə tədrisin yüksək səviyyədə təşkili üçün hər bir şərait yaradılmışdır. Müasir fənn laboratoriyaları, geniş və işıqlı sinif otaqları, idman zalı, mərkəzləşdirilmiş istilik sistemi və sair müəllim və şagirdlərin ixtiyarına veriləcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



# 38 kilometrlik yol yenidən qurulur

**Lənkəranda ümumi uzunluğu 38,6 kilometr olan avtomobil yolları 3 və 4-cü texniki dərəcəyə uyğun bir neçə istiqamət üzrə müasir şəkildə yenidən qurulur.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, bu, rayonun Səpnəkəran-Şürük-Kosalar-Bala Şürük-Gərmətük-Velədi-Sütəmurdov və Kərgələn-Lüvəsər-Bəlləbur kəndlərini birləşdirən avtomobil yolları, həmçinin mövcud Ələt-Astara magistralının 10 kilometrlik hissəsidir.

Yenidənqurma işləri çərçivəsində yolların yararsız örtüyü sökülüb, torpaq yatağının yararsız hissələri qazılıb çıxarılıb, yol əsasının alt və üst layının inşası aparılıb. Sözügedən işlərin əhatə etdiyi sahə təqribən 380 min kvadratmetrdir.

Yolboyu yaşayan vətəndaşların pay torpaqlarında becərdikləri kənd təsərrüfatı məhsullarının suvarılması və məişətdə istifadəsi üçün yolun altından suların ötürülməsi məqsədilə sıradan çıxmış mövcud dəmir-beton borular bərpa olunub, zəruri olan yerlərdə müxtəlif diametrli yeni boruların tikintisi işləri aparılıb. Bu çərçivədə müxtəlif diametrlərə malik 1922 poqonmetr uzunluğunda 164 dəmir-beton dairəvi suötürücü borular quraşdırılıb və izolyasiya olunub.

Hazırda agentliyin "Azəryolelmitədqiqatlayihə" institutunun hazırladığı layihəyə əsasən, əlaqələndirici bitum səpilməklə yolların iri və xırda dənəli asfalt-beton qarışığı ilə örtülməsi, çiyin hissələrin isə optimal qum-çınqıl qarışığı ilə bərkidilməsi işləri aparılır.

İşlər yekunlaşdıqdan sonra yolboyu zəruri yerlərdə avtobus dayanacaqları, hərəkətin normal təşkili üçün isə yol nişanları, siqnal dirəkləri və kilometr göstəriciləri quraşdırılacaq, üfüqi nişanlanma xətləri və piyada zolaqları çəkilməklə müasir yol infrastrukturu yaradılacaq.



# Qazaxın sərhəd kəndində yeni məktəb binası tikilir

**Son illər Prezident İlham Əliyev tərəfindən ölkəmizdə təhsil sahəsinə göstərilən diqqət və qayğı, bu qayğı sayəsində həyata keçirilən məqsədyönlü tədbirlər, eləcə də Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə fondun reallaşdırdığı "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi Qazax rayonunda da uğurla gerçəkləşir.**



Qeyd edək ki, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə hazırlanmış tədbirlər planına Qazax rayonu üzrə 11 məktəb binasının əsaslı təmirinin və ya tikintisinin salınması bölgələrdə təhsil sahəsinə olan dövlət qayğısının daha bir bariz nümunəsidir. Təkcə bu il Heydər Əliyev Fondu tərəfindən rayonda Sarıvəlli kənd tam orta məktəbi üçün yeni binanın inşa olunması, Xalq yazıçısı İsmayıl Şıxlının adını daşıyan 1176 şagirdlik Kosalar kənd tam orta məktəbinin əsaslı şəkildə yenidən qurulması, Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-lisey binasının əsaslı təmiri bu sahədə görülən işlərin uğurla davam etdirilməsi deməkdir.



Dövlət Proqramında tikintisi nəzərdə tutulan məktəblərdən biri də düşmənlə sərhəddə yerləşən şəhid Aydın Məmmədovun adını daşıyan Qaymaqlı kənd tam orta məktəbidir ki, Təhsil Nazirliyi tərəfindən bu təhsil ocağı üçün 180 şagird yerlik yeni bina inşa olunur. Bu ilin yanvar ayından tikintisinə başlanılan yeni məktəbdə şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılır. Məktəb binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Bundan əlavə, məktəbdə həcmi 100 kubmetr olan içməli su anbarı, həcmi 122 kubmetr olan yanğından mühafizə üçün su anbarı, su nasosu stansiyası, çirkab su anbarı, qazanxana da inşa edilir.

Birinci mərtəbədə hazırlıq qrupu üçün bir, ibtidai siniflər üçün isə 4 sinif otağı nəzərdə tutulub. İkinci mərtəbədə 7, üçüncü mərtəbədə isə 8 sinif otağı olacaq. Həmçinin idman zalı, akt zalı, bufet də fəaliyyət göstərəcək.

Məktəbin müəllim-şagird kollektivi, eləcə də valideynlər düşmənlə sərhəddə yerləşən Qaymaqlı kəndində yeni məktəb binasının tikilməsini razılıq hissi ilə qarşılayırlar. Təhsil sahəsinə göstərilən dövlət qayğısına görə ölkə Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# 11 min hektar sahədə payızlıq dənlilərin səpini proqnozlaşdırılır

Zaqatala rayonunun təsərrüfatlarında payızlıq bitkilərin səpini üçün yay şumunun çıxarılmasına başlanılıb. İndiyədək təsərrüfatlarda 2500 hektardan çox sahədə yay şumu qaldırılıb. Səpin aparılacaq sahələrin şumlanmasına 70-dək şum traktoru cəlb olunub. Bu ilin payızında rayonda gələn ilin məhsulu üçün 11 min hektar sahədə payızlıq dənlilərin səpini proqnozlaşdırılır.

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Zaqatala Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Vaqif Şabanov məlumat verib.

Qurum rəsmisinin sözlərinə görə, payızlıq bitkilərin səpininə sentyabrın üçüncü ongünlüyündə başlamaq nəzərdə tutulur.

Xatırladaq ki, builki mövsümdə zaqatalalı fermerlər 11 min 320 hektar taxıl sahəsindən 35 min 50 ton məhsul götürüblər. Hər hektara görə orta məhsuldarlıq 31 sentner təşkil edib. Taxıl istehsalı əvvəlki illə müqayisədə 1881 ton artıb.

# Bu il 35 min tondan çox pambıq istehsalı gözlənilir

Respublikamızın ən iri pambıqçılıq rayonlarından olan Ağcabədidə məhsul yığımına hazırlıq görülür.

Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-ın bölgə müxbirinə bildiriblər ki, 2020-ci ildə rayonda 4200 hektarı "Azərpambıq" MMC, 5068,8 hektarı "MKT İstehsalat Kommersiya" MMC, 1420 hektarı "P-Aqro" MMC ilə müqavilə əsasında 10 min 688,8 hektar sahədə pambıq becərilib. Yüksək məhsul əldə etmək üçün əkin sahələrində aqrotexniki becərilmə qaydalarına ardıcıl və düzgün əməl olunub, cərgələrarası becərmələr, alaq otlarına və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri vaxtında aparılıb, bitkilər tələbata uyğun optimal müddətdə mineral gübrə və suvarma suyu ilə təmin edilib. Nəticədə yaxşı çıxış alınıb, barlı kollar yetişib. Bu isə məhsulun bol olacağından xəbər verir.

Hazırda pambıq yığımına hazırlıq işləri görülür - kənd təsərrüfatı texnikaları işlək vəziyyətə gətirilir, digər zəruri aqrotexniki və təşkilati tədbirlər həyata keçirilir. Pambıq yığımına 53 ədəd kombayn, 128 ədəd traktor, 276 ədəd qoşqu, 5 ədəd yükləyici, 39 ədəd çiləyici cəlb ediləcək. Bu mövsüm rayon üzrə 35 min tondan çox pambıq istehsalı gözlənilir.

Qeyd edək ki, 2019-cu ildə Ağcabədi rayonunda 10 min 452,25 hektar sahədə pambıq becərilib, 32 min 99 ton məhsul istehsal edilib, orta məhsuldarlıq 30,7 sentner olub.

# Aprel şəhidi haqqında sənədli film çəkilir

2016-cı ilin Aprel döyüşlərində qəhrəmancasına şəhid olan Babək Abidovun həyat və döyüş yolundan bəhs edən sənədli film çəkilir.

AZƏRTAC xəbər verir ki, filmin çəkilişləri şəhidin doğulub boya-başa çatdığı Şabran rayonunun Zeyvə kəndində aparılır. Ekran işinin rejissoru Dəyanət Rzayev, prodüseri Vəli Turan, ssenari müəllifi Coşqun Beydullayev, quruluşçu operatorları Rizvan Hacıyev və Mais Allahverdiyevdir.



Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə "Regional Medianın İnkişafına Yardım" İctimai Birliyinin həyata keçirdiyi layihə çərçivəsində ərsəyə gələcək filmin sentyabr ayının sonunda tamaşaçılara təqdim olunması nəzərdə tutulub. "Aprel Qəhrəmanı" adlı ekran işi "ARB Media Qrup"a daxil olan "ARB Günəş" kanalında yayımlanacaq.

Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində cəbhə bölgəsində gedən döyüşlərdə şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin giziri Babək Abidov ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalına layiq görülüb.

# Kursk şəhərində "Azərbaycan Böyük Vətən müharibəsi illərində" kitabının təqdimat mərasimi keçirilib

Kursk şəhərində "Azərbaycan Böyük Vətən müharibəsi illərində" kitabının təqdimat mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Kursk vilayətində Azərbaycanlılar Liqasının rəhbəri Qasım Kərimovun təşəbbüsü ilə nəşr edilmiş bu kitab Nikolay Aseyev adına elmi kitabxanada təqdim olunub.



Tədbirdə çıxış edən Q.Kərimov bildirib ki, bu kitabın nəşri ideyası onun saytların birində Sovet İttifaqı Qəhrəmanı Cahangir Bağırov haqqında material aşkar etməsindən sonra yaranıb. Hava hücumunu həyata keçirmiş ilk azərbaycanlı olan Cahangir Bağırov Oboyan yaxınlığında həlak olub. Ona ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilib.

Q.Kərimov deyib: "Mən İkinci Dünya müharibəsi illərində fərqlənən bütün azərbaycanlılar barədə imkan daxilində məlumat toplamaq qərarına gəldim. Lakin görüləcək işin həcminin çox böyük olduğunu nəzərə alaraq, mən bu istiqamətdə çalışan Azərbaycan tarixçilərinə müraciət etdim. Bizim müəllif kollektivimizə tarix elmləri doktoru Vəfa Quliyeva rəhbərlik etdi".

Kitabda Sovet İttifaqı qəhrəmanları, "Şöhrət" ordeni kavalerləri, arxa cəbhə zəhmətkeşləri, partizanlar, Bakı neftçiləri, Fransa və Yuqoslaviyada müqavimət hərəkatının iştirakçıları olan azərbaycanlılar haqqında material yer alıb. Xüsusən Əhmədiyyə Cəbrayılov, Mehdi Hüseynzadə, Ziya Bünyadov haqqında yazılar olduqca maraqlıdır.

Nəşrin əsas ideyası ondan ibarətdir ki, faşizm üzərində qələbə Sovet İttifaqının bütün xalqlarını birləşdirir. Ona görə də bu gün keçmiş ittifaq respublikalarının ərazisində tarixin yenidən yazılması, nasizm və kollaborasionizmin reabilitasiyası xüsusilə yolverilməzdir.

# Beynəlxalq aləm

## Malidəki hərbi xunta öz liderini "prezident" elan edib

Malidə özünü "Xalqın Azadlıq Milli Şurası" (CNSP) elan edən hərbi xuntanın lideri Assimi Qoita yeni "prezident" kimi təqdim olunub.



Malinin rəsmi KİV-ində "Əsas hüquq və vəzifələr haqqında" 41 səhifəlik sənəd yayılıb. Qiyamçılar bəyan ediblər ki, yeni sənəd 1992-ci il Mali Konstitusiyasına "əlavədir" və 32-ci maddəyə əsasən, dövlət başçısı CNSP-nin lideri, yəni Assimi Qoita olur.

Malidə avqustun 18-də baş vermiş üsyan gecəsində hərbi xunta əhaliyə ölkədə köklü islahatlar vəd edib. Bu məqsədlə qiyamçılar Qərbi Afrika ölkələrinin regional İttifaqının-ECOWAS-ın nümayəndələri ilə bir sıra görüşlər keçiriblər.

Avqustun 22-24-də Maliyə səfər edən ECOWAS nümayəndə heyəti bəyan edib ki, bu ölkədə keçid prosesi bir ildən çox davam etməməlidir.

## Hollivud ulduzu 43 yaşında xərçəngdən öldü



"Qara bəbir"də, eləcə də onlarla digər filmlərdə əsas rol oynamış Çedvik Bouzman xərçəngdən ölüb. 43 yaşlı aktyor ABŞ-da vəfat edib. Bu barədə aktyorun Tvitter səhifəsində bildirilir.

"Əsl döyüşçü Çedvik bütün bunları keçirdi və sizin sevdiyiniz çoxlu filmlər bağışladı", - deyə məlumatda bildirilir.

Qeyd olunur ki, Bouzmana dörd il əvvəl yoğun bağırsaq xərçəngi diaqnozu qoyulmuşdur.

Hollivud ulduzu Los-Ancelesdəki (Kaliforniya ştatı) evində ailəsinin əhatəsində dünyasını dəyişib.

## ABŞ-da "Laura" qasırğası qurbanlarının sayı 14-ə yüksəldi

ABŞ-ın cənubunda tüğyan edən "Laura" qasırğası qurbanlarının sayı 14-ə çatmışdır. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.



Meksika körfəzindəki ən güclü qasırğalardan biri, Saffir-Simpson beş ballıq cədvəlində dördüncü kateqoriyanı almış "Laura" həyatları almağa və Amerika Birləşmiş Ştatlarının infrastrukturunu məhv etməyə davam edir.

Beş nəfər Luiziana ştatında evlərə düşmüş ağaclara görə həlak olub, biri boğulub. Generatorların təhlükəsiz işləməməsi üzündən səkkiz nəfər dəm qazı ilə zəhərlənmə nəticəsində dünyasını dəyişib.

Qasırğanın dağıdıcı fəsadları Luiziana, Texas və Arkanzas əyalətlərində qeydə alınıb.

Bu ştatların 600 mindən çox sakini elektrik enerjisiz qalıb.

Luiziana Səhiyyə Nazirliyinin məlumatına görə, 220 mindən artıq ştat sakini sudan məhrum olub, təmir isə bir neçə həftə çəkə bilər.

ABŞ Prezidenti Donald Tramp Luiziana və Texas ştatlarına səfər etməyi planlaşdırır.

Son məlumata görə, qasırğa Tennessi ştatına doğru irəliləyir.

## İsveçdə Quranın yandırılmasından sonra iğtişaşlar baş verdi

İsveçin Malmö şəhərini iğtişaşlar bürüyüb. Orada ekstremistlər müsəlmanların müqəddəs Quran kitabını yandırıblar və şəbəkədə video yayımlayıblar. Bu barədə SVT telekanalı xəbər verir.

Bu aksiya güclü hiddət doğurmuşdur. İğtişaşların iştirakçıları fişənglər yandırmış, polisə daş atmış, zibili və avtomobil şinlərini yandırmışlar. Nəticədə bir neçə polis əməkdaşı xəsarət almış, onların avtomobilləri yandırılmışdır. Asayiş keşikçiləri 20 nəfəri saxlayıb.

Malmö İnzibati Məhkəməsi isveçli küçə rəssamı Den Pak tərəfindən müqəddəs kitabın yandırılması planlaşdırdırılan antiislam aksiyasının keçirilməsinə icazə vermədikdən sonra danimarkalı sağçı ekstremist partiyalardan birinin üzvləri Quranı yandırmaq qərarına gəliblər.

## Konqoda 5 məktəbli qətlə yetirilib

Konqo Demokratik Respublikasında imtahanların verilməsi zamanı naməlum şəxslərin təhsil mərkəzinə hücumu nəticəsində 5 şagird qətlə yetirilmişdir. Bu barədə "Africa Times" qəzeti xəbər verir.

Regional hökumətin təhsil naziri Priska Kamalanın dediyinə görə, hadisə Şimali Kivu əyalətinin Katanqa qəsəbəsində baş verib.

Həmçinin nazir bildirib ki, cinayətkarlar müəllimi və bir neçə şagirdi oğurlayıblar. İtkin düşmüş şəxslərin dəqiq sayı müəyyənləşdirilməyib.

Hakimiyyət orqanları uşaqların öldürülməsi və oğurlanması ilə bağlı təhqiqata başlayıb.

Bundan əvvəl Demokratik Qüvvələr Alyansının terrorçuları Konqonun şərqindəki iki kəndin azı 13 dinc sakinini öldürüblər.

# Cəlilabad rayonunda arvadını öldürməkdə təqsirli bilinən şəxs tutularaq istintaqa cəlb olunub

Cəlilabad rayonunun Uzuntəpə kənd sakini Elnur Əliyevin yaşadıqları evdə arvadı Natavan Nəsirovaya iyulun 26-da bıçaqla xəsarət yetirməsi faktı ilə bağlı Cəlilabad Rayon Polis Şöbəsinin istintaq bölməsində Cinayət Məcəlləsinin 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) maddəsi ilə cinayət işi başlanıb.

Cəlilabad Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, cinayət işinin materiallarının rayon prokurorluğu tərəfindən öyrənilməsi zamanı Elnur Əliyevin arvadı Natavan Nəsirovanı qəsdən adam öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyənləşdirildiyindən cinayət işi üzrə əməl Cinayət Məcəlləsinin 128-ci maddəsindən 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsinə tövsif edilərək rayon prokurorluğunun icraatına götürülüb.

Elnur Əliyev təqsirləndirilən şəxs qismində cəlb edilib. Ona həmin maddə ilə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

İş üzrə müvafiq ekspertizalar təyin olunub, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

**qəzetinə abunə yazılışı kampaniyası davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (070) 244-17-34 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 564-63-45, (050) 214-04-05 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*4 aylıq*
41,60 (qırx bir manat altmış qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# "Azercell"in rəqəmsal həlləri diqqətçəkən onlayn xidmətlər sırasındadır

"Kabinetim" özünəxidmət tətbiqi Azərbaycanda ən çox yüklənilən proqramlardan biri kimi qeydə alınıb

Müasir texnologiyaların təqdim etdiyi sonsuz imkanları abunəçilərі üçün əlçatan etməyi hədəfləyən "Azercell Telekom" ilin əvvəlindən bugünə kimi rəqəmsal məhsullar çeşidini əhəmiyyətli dərəcədə zənginləşdirdi. Yeni mobil tətbiqlər vasitəsilə istifadəsi mümkün olan müxtəlif rəqəmsal həllər fərqli zövq və tələbatlara uyğun şəkildə abunəçilərin maraqlarını qarşılamaqda və gündəlik həyatı asanlaşdırmaqda davam edir.

Qeyd edək ki, ötən illə müqayisədə "Azercell" Rəqəmsal Həllərindən istifadə edən abunəçilərin sayı 35 faiz yüksələrək 500 min nəfərə çatıb və bu rəqəm artmaqda davam edir.

Abunəçilərə öz nömrəsinə tam nəzarət etmək, balansı artırmaq, tarif və internet paketlərini sifariş edib dəyişdirmək, bir çox xidmətləri aktiv və deaktiv etmək imkanı verən "Azercell"in "Kabinetim" özünəxidmət tətbiqi Azərbaycanda "Biznes" kateqoriyasında ən çox yüklənilən proqramlardan biri kimi qeydə alınıb. Belə ki, hazırda 270 000-dən artıq abunəçinin istifadə etdiyi "Kabinetim" mobil tətbiqi "App Store" və "Playstore" statistikası üzrə ən yüksək pillələri tutmaqdadır.

COVID-19 qlobal pandemiyası ilə əlaqədar karantin rejiminin tətbiq olunduğu ilk aylardan etibarən "Azercell" abunəçilərin sosial təcrid şəraitində zamanlarını səmərəli keçirə bilmələri üçün rəqəmsal həllərin çeşidini artırmaqla yanaşı, onların istifadəçiləri üçün müxtəlif endirimli kampaniyalar da tətbiq etdi.

Belə ki, bütün musiqisevərlər "Azercell"in "Zvuk" tətbiqində aylıq paketə qoşulmaqla mobil internetə əlavə heç bir ödəniş etmədən xidmətdən tam limitsiz istifadə imkanından faydalandı. Hazırda dünya müsiqisilə yanaşı, "Zvuk" mobil tətbiqinə böyük həcmdə müxtəif janrlı Azərbaycan dilli musiqi məzmunu da yüklənilib.

Eyni anda 12 xarici dil öyrənmək imkanı verən dünyaca məşhur "Busuu" tətbiqinin aylıq paketi 50 faiz endirimlə "Azercell" abunəçilərinin ixtiyarına verildi. Həmçinin, 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə aztəminatlı və şəhid ailələrindən olan, eləcə də autizmdən əziyyət çəkən minə yaxın məktəbliyə "Azercell" 6 aylıq pulsuz "Busuu" xarici dil kurslarını hədiyyə etdi.

Abunəçilərin sevdiyi serialları asanlıqla smartfondan izləməyə imkan verən "BluTV" və 200-dən artıq dünyanın ən baxımlı kanallarını seyr etməyə şərait yaradan "NNTV" tətbiqləri isə abunəçilər arasında istifadə müddətinə görə rekord hədlərə çatan proqramlardır. "NNTV" xidmətinin yeni "Sports" ("İdman") paketinə abunə olmaqla idman azarkeşləri matçları və idman yarışlarını seyr edə bilir. Bundan əlavə, "NNTV Kids" paketində Disney, Boomerang, Cartoon Network, Nickelodeon HD, TRT Cocuk, Detskiy mir, Karusel, Discovery Channel HD kimi ən məşhur kanallara baxmaq olar. Paketə daxil edilən kanalların müxtəlifliyi uşaqların həm əylənməsi, həm də maariflənməsinə imkan verir.

"Azercell"in təklif etdiyi müxtəlif məzmunlu rəqəmsal xidmətlərə "Kabinetim" özünəxidmət tətbiqi vasitəsilə asanlıqla abunə olmaq mümkündür.

# Ermənistan ordusunun real mənzərəsi: Əsgər tapılmır, ümid hərbi könüllü dəstələrədir

*Əvvəli 1-ci səh.*

Belə vəziyyətdə ordudan yayınanların sayının artması bu xüsusda qaldırılan cinayət işlərinin də sayını çoxaldır.

Artıq bu vəziyyət hökuməti ciddi narahat edir. Belə qəbildən olan cinayət işlərinin sayının azaldılması üçün isə yeni cəhdlər edilir. Elə buna görədir ki, Ermənistan parlamentinin ötən il 2018-ci ilədək 27 yaşı tamam olan və hərbi xidmətdən yayınan vətəndaşların müvafiq cərimə ödədikləri halda cinayət məsuliyyətindən azad edilməsi barədə qanuna dəyişikliklə bağlı layihəsi ilk oxunuşda yekdilliklə qəbul edilmişdi. Bildirilirdi ki, bu təşəbbüs Ermənistandan qaçan 2 mindən çox gəncin ölkəyə geri qayıtmalarına və həbs edilmədən cərimə pulunu ödəmələrinə imkan verəcək. Hazırda Ermənistanda hərbi xidmətdən yayınan gənclərin sayının 12 mindən çox olduğu bildirilir.

"4rd.am" saytı yazır ki, hazırda 27-35 yaşarası 4 mindən çox vətəndaş orduda xidmətdən yayındıqlarına görə axtarışdadır. Yerdə qalan hərbi xidmətdən qaçan minlərlə insan isə 27 yaş həddinə çatmayan gənclərdir. Bütün bunlar hakimiyyətin orduya nəzarət edə bilmədiyini göstərir.

"İravnuk" qəzeti isə yazır ki, Ermənistan korrupsiya risklərinin çox yüksək olduğu 17 ölkə arasındadır. Qeyd edilir ki, Ermənistan Müdafiə Nazirliyi sistemindəki korrupsiya halına xüsusi toxunmaq lazımdır. Müdafiə sahəsində korrupsiya ölkə iqtisadiyyatına mənfi təsir edir və belə hallar aprel hadisələri və ötən ay cəbhədəki son döyüşlər zamanı da məlum olduğu kimi, çoxlu insanın həyatına son qoya bilər: "Müdafiə, milli təhlükəsizlik və daxili işlərlə bağlı parlament komissiyaları çox güclü deyil. Biz büdcə və hesabatların nə dərəcədə yaxşı idarə olunduğunu bilmirik. Faktiki olaraq, Müdafiə Nazirliyi lazımi nəzarət olmadan istədiyi büdcəni əldə edə bilir, öz vasitələrindən istədiyi kimi istifadə edir. Daxili auditlə bağlı heç bir məlumat yoxdur. Əsgərlər lazımi informasiyalar əldə edə bilmirlər, onların arasında təbliğat aparmaq mümkün deyil. Öz seçimlərini ya komandirlərin təlimatı ilə, ya da bilmədən edirlər".

Hesab edilir ki, qarşıdakı dövr ərzində erməni ordusunda daha böyük problemlərin qeydə alınması qaçılmazdır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Daxili İşlər Nazirliyi Bərdədə əməliyyat keçirib, 11 nəfər saxlanılıb

Daxili İşlər Nazirliyinin əməkdaşları Bərdə şəhərində ictimai-asayişi kobud surətdə pozaraq vətəndaşların haqlı narazılığına səbəb olmaqla ciddi qanun pozuntularına yol verən şəxslərə qarşı kompleks əməliyyat tədbirləri həyata keçiriblər.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əldə edilən əməliyyat məlumatlarında bir qrup cinayət törətməyə meyilli şəxsin Bərdə şəhərində narkotik vasitələrin satışı, yaşadıqları mənzillərdə qanunsuz olaraq odlu və soyuq silah-sursat saxlamaları, eləcə də silsilə xuliqanlıq hərəkətləri törətmələri öz əksini tapıb. Həmin məlumatlar təhlil edilərək öyrənilib və qeyd edilən faktlar hərtərəfli araşdırılıb.

Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə və Baş Narkotiklərlə Mübarizə İdarələri, eləcə də Bərdə Rayon Polis Şöbəsi əməkdaşları tərəfindən avqustun 27-də birgə keçirilən əməliyyatlar zamanı yuxarıda sadalanan qanun pozuntularını törətməkdə şübhəli bilinən, əvvəllər müxtəlif cinayətlər törətdiklərinə görə dəfələrlə məhkum olunmuş 11 nəfər Bərdə rayon sakini - Dilqəm Səfərov, İmadi Əbdüləzimov, Xəlil Heydərov, Ayxan Abbasov, Rizvan Məmmədov, İmdad Abdullayev, Zaur Hacıyev, Musa Şərifxanov, Xəqani Məmmədov, Ehtiram İsayev və Sevdiyar Əzizov saxlanılıblar. Onların üstlərinə və yaşadıqları evlərə baxış zamanı külli miqdarda müxtəlif növ güclü təsiredici xassəyə malik narkotik vasitə və psixotrop maddələr, 1 ədəd "Naqan" tipli tapança, çoxlu sayda soyuq silah kimi istifadə olunan kəsici-deşici alətlər, elektron tərəzilər aşkar olunaraq maddi sübut kimi götürülüb.

Qeyd edilən şəxslər barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılmaqla onlar barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Həmin şəxslər tərəfindən törədilmiş digər cinayət faktlarının müəyyən edilməsi məqsədilə müvafiq istintaq-əməliyyat tədbirləri davam etdirilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Elm, ali və orta ixtisas təhsili şöbəsinin sektor müdiri Əfqan Abdullayevə anası **TAMARA XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7291
Sifariş 1984
Qiyməti 40 qəpik